# YENİ AZƏRBAYCAN

Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir

Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur. Yeni Azərbaycan Partiyasının orqanı.

13 yanvar 2026-cı il, çərşənbə axşamı
№ 006 (7073)
Qiymәti 60 qəpik




Milli azadlıqdan şirin nemət yoxdur!

# Genişmiqyaslı və müfəssəl Dövlət Proqramı

## Akademik Tofiq Hacıyev İlham Əliyev haqqında nə demişdi?...




Bax səh. 3

## İlham Əliyev: Bakının, Sumqayıtın, Abşeron rayonunun və 64 yaşayış məntəqəsinin su təchizatı böyük dərəcədə yaxşılaşacaq



Bax səh. 2

# Sülhün inkişafına real töhfə...

Bax səh. 5

## “Somalilənd”in “müstəqilliyi” tanınmır

Azərbaycanın çoxvektorlu xarici siyasətində dünya ölkələri ilə əlaqələrin inkişaf etdirilməsi mühüm yer tutur. Ölkəmizin yeni mərhələdə formalaşan iqtisadi-siyasi, ticari münasibətlər sisteminə verdiyi töhfələr, irəli sürdüyü önəmli təşəbbüslər beynəlxalq aləmdə yüksək dəyərləndirilir. Bu isə nəticədə ölkəmizə olan müsbət maraqları artırır. Burada əsas məqamlardan biri də Azərbaycanın beynəlxalq münasibətlər sistemində bərabərhüquqlu əməkdaşlığı təbliğ etməsidir.

Son illər Azərbaycanın bir sıra Afrika ölkələri ilə də əlaqələri genişlənir. Bu baxımdan, ölkəmizin Somali ilə münasibətləri xüsusi vurğulanmalıdır.  Azərbaycan ilə Somali arasında diplomatik əlaqələr 2004-cü ilin mart ayının 22-də qurulub. İki ölkə arasında diplomatik münasibətlərin qurulmasından ötən dövr ərzində, xüsusilə son illərdə Azərbaycan-Somali təmaslarının artması əməkdaşlıq perspektivlərinin müzakirəsində faydalı rol oynayır. Azərbaycanla Somali arasında siyasi məsləhətləşmələr haqqında imzalanmış sazişə uyğun olaraq, əməkdaşlığın...




Bax səh. 4

## Etiraz aksiyaları davam edir



Bax səh. 6

## Referendum keçirilsə...

Bax səh. 7

## Azərbaycan qızıl ehtiyatlarının artırılması ilə bağlı strateji qərar qəbul edib

Bax səh. 4

## BMT-də islahatlar aparılacaqmı?

Bax səh. 6

## Müharibə əlilləri və şəhid ailələrinə yeni güzəştlər

Məlum olduğu kimi Prezident İlham Əliyev “Dövlət rüsumu haqqında” və “Daşınmaz əmlakın dövlət reyestri haqqında” qanunlara müvafiq dəyişiklikləri təsdiq edib. Dəyişikliklərə əsasən, şəhid ailələri və müharibə əlilləri əmlakın qeydiyyatı ilə bağlı dövlət rüsumlarından azad olunublar. Belə ki, adıçəkilən sosial kateqoriyaya aid vətəndaşlar “Daşınmaz əmlakın dövlət reyestri haqqında” Qanunun 6-cı və “Dövlət rüsumu haqqında” Qanunun 26-cı maddələrində daşınmaz əmlaka mülkiyyət və digər əşya hüquqlarının dövlət qeydiyyatına alınması ilə bağlı sənədlərin verilməsinə görə tutulan dövlət rüsumunun bütün dərəcələrini ödəməkdən azad edilirlər. Rüsum dərəcələrinə daşınmaz əmlaka dair hüquqların dövlət qeydiyyatına alınması ilə bağlı reyestrdən çıxarışın (şəhadətnamə), texniki sənədlərin (pasport və plan ölçü) verilməsi, torpaq sahələri üzərində hüquqların qeydiyyatı üçün mərzçəkmə işlərinin görülməsi, daşınmaz əmlak üzərində hüquqların məhdudlaşdırılmasına (yüklülüyünə) dair dövlət reyestrindən arayışın verilməsi, ipotekanın dövlət qeydiyyatına alınması və daşınmaz əmlaka dair digər hüquqi hərəkətlər daxildir.

Təklif olunan dəyişiklik sosial cəhətdən həssas əhali kateqoriyasının - müharibə...



Bax səh. 5

# Qəzzada yenidən müharibə başlayacaq?

Bax səh. 7

## Transatlantik həmrəylik sınaq qarşısında...



Bax səh. 6

# Genişmiqyaslı və müfəssəl Dövlət Proqramı

## Prezident İlham Əliyev: Bakının, Sumqayıtın, Abşeron rayonunun və 64 yaşayış məntəqəsinin su təchizatı böyük dərəcədə yaxşılaşacaq



### Bakı şəhəri və Abşeron yarımadasında su təchizatı, tullantı və yağış suları sistemlərinin təkmilləşdirilməsinə dair 2026-2035-ci illər üzrə Dövlət Proqramına həsr olunan müşavirə keçirilib



Yanvarın 12-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Sədrliyi ilə Bakı şəhəri və Abşeron yarımadasında su təchizatı, tullantı və yağış suları sistemlərinin təkmilləşdirilməsinə dair 2026-2035-ci illər üzrə Dövlət Proqramına həsr olunan müşavirə keçirilib. AZƏRTAC xəbər verir ki, müşavirədə dövlətimizin başçısı çıxış edib. Prezident İlham Əliyev bildirib ki, Bakı şəhərinin və Abşeron yarımadasının su problemlərinin həlli həyata keçirilən infrastruktur layihələri arasında xüsusi yer tutan məsələdir: “Bildiyiniz kimi, ölkəmizdə son illər ərzində genişmiqyaslı infrastruktur layihələri icra edilmişdir, həm Bakıda, həm bütün bölgələrdə. Demək olar ki, əsas infrastruktur məsələləri öz həllini tapmışdır. İyirimi il ərzində bir neçə regional inkişaf proqramı qəbul edilmişdir. Hər proqram beş ili əhatə edirdi və proqramlar uğurla icra olundu. Biz bunun nəticəsində əsas infrastruktur məsələlərini həll etdik. İlk növbədə elektrik enerjisi ilə təchizat bütün ölkəni əhatə etmişdir. Tamamilə yeni mərhələyə qədəm qoyduq”.

Dövlət başçısı qeyd edib ki, bu gün bizim enerji generasiya gücümüz tələbatımızdan daha artıqdır. Hətta biz elektrik enerjisini ixrac edirik. “Vaxt var idi ki, bu məsələ ilə bağlı ciddi problemlər mövcud idi, enerji qıtlığı mövcud idi. Biz hətta xaricdən elektrik enerjisini idxal etməyə məcbur idik. Bu gün isə görülmüş tədbirlər nəticəsində həm generasiya gücləri yaradıldı, - hazırda təqribən 10 min meqavata yaxındır, - eyni zamanda, yarımstansiyalar, ötürücü xətlər, paylayıcı şəbəkə - bütün bu məsələlər vahid sistem halına salınmışdır. Vaxtilə bu sahədə qüsurların böyük hissəsi aradan qaldırılmışdır. Biz bu gün nəinki öz enerji tələbatımız haqqında, - bu məsələ həll edilmiş hesab olunur, - ixrac yolları haqqında düşünürük və nəinki düşünürük, onları biz yaradırıq. Azərbaycan bir neçə ildən sonra, - necə ki, bu gün nefti, qazı dünya bazarlarına ixrac edir və bir çox ölkələrin enerji təhlükəsizliyini təmin edir, - eyni səviyyədə elektrik enerjisini dünya bazarlarına ixrac edəcək. Qeyd etməliyəm ki, buna nail olmaq üçün indi qonşu dövlətlərlə və bizim şirkətlərlə, qonşu ölkələrin şirkətləri ilə ciddi danışıqlar aparılır”, -deyən dövlət başçısı bildirib ki, biz qazlaşma məsələlərini böyük dərəcədə həll etmişik. Bu gün ölkəmizdə qazlaşma 96 faizə çatıbdır: “Mən bunu deməklə yaşayış məntəqələrini yox, əhalini nəzərdə tuturam. Əhalinin 96 faizi bu gün təbii qazla təchiz edilib. Bu da son 20 il ərzində aparılan infrastruktur layihələri arasında xüsusi yer tutan məsələdir. Çünki vaxtilə bizim qaz təchizatımız daxili tələbatı ödəməyə imkan vermirdi. Biz qazı da xaricdən idxal edirdik və böyük çətinliklərlə üzləşirdik. Bu gün isə dünyanın 10-dan çox ölkəsi, - bu ölkələrin sayı ildən-ilə artır və bu il də yeni ölkələr bu siyahıya daxil ediləcək, - Azərbaycan təbii qazını alıb öz enerji təhlükəsizliyini gücləndirir”.



Avtomobil yollarının inşasının geniş vüsət aldığını söyləyən Prezident vurğulayıb ki, bu gün həm magistral, həm kənd yolları, şəhərlərarası yollar - bu layihələr icra edilir. Hazırda işğaldan azad edilmiş ərazilərdə bütün bu infrastruktur layihələri icra edilir. Elektrik enerjisi, generasiya gücləri, ötürücü xətlər, yollar, körpülər, tunellər, su təchizatı, qazlaşma və bütövlükdə uzun illər işğal altında qalmış ərazilər dirçəlir, həyata qayıdır və vahid infrastruktur şəbəkəsinə qoşulur: “İçməli su və suvarma layihələri də həmişə diqqət mərkəzində olub. Azərbaycan vətəndaşları yaxşı xatırlayırlar ki, vaxtilə bu, insanları narahat edən ən ciddi məsələlərdən biri idi. Bu məsələlər də tədricən öz həllini tapmışdır. Bu gün bizim əksər şəhərlərimizdə içməli su, kanalizasiya layihələri icra edilmişdir və bu proses davam etdirilir. Biz son 20 il ərzində dörd böyük su anbarı inşa etmişik və bu su anbarlarının potensialı 500 milyon kubmetrdən çoxdur. Onların arasında xüsusilə “Taxtakörpü”, “Şəmkirçay” su anbarlarını qeyd etməliyəm. Əgər bu su anbarları tikilməsəydi, bu gün həm Bakının su təchizatı, həm də qərb zonasının su təchizatı böyük problemlərlə üzləşə bilərdi. “Taxtakörpü” su anbarı bizə imkan verdi ki, Samur çayının sularını “Ceyranbatan” su anbarına yığaq və orada ehtiyat yaransın. O cümlədən “Ceyranbatan” su anbarı tamamilə yenidən qurulmuşdur, yeni, müasir təmizləyici qurğular kompleksi inşa edilmişdir”.

Prezident onu da deyib ki, azad edilmiş ərazilərdə içməli su və suvarma layihələri icra edilir. Son beş il ərzində bir neçə önəmli layihə başa çatıb. Vaxtilə Ermənistan tərəfindən dağıdılmış və yararsız vəziyyətə salınmış su anbarları əsaslı təmir edilib. “Onların arasında, ilk növbədə “Sərsəng” su anbarını qeyd etməliyəm. Bu, nəinki azad edilmiş ərazilərdə, bütövlükdə ölkəmizdə ən böyük su anbarlarından biridir. Vaxtilə torpaqlarımız işğal altında olanda Ermənistan dövləti bizə qarşı su terroru da həyata keçirirdi. “Sərsəng” və “Suqovuşan” su anbarlarının sularının bağlanması və sudan bir silah kimi istifadə edilməsi bizə böyük problemlər yaradırdı. Su lazım olan aylarda kəsilirdi, ondan sonra buraxılırdı və bu, böyük daşqınlara səbəb olurdu. Yəni, əslində, Ermənistan dövləti su terroru həyata keçirirdi. Bu gün isə “Suqovuşan” su anbarı, “Sərsəng” su anbarı tamamilə yenidən qurulub. Azad edilmiş digər torpaqlarda - Füzuli rayonunda “Köndələnçay” - üç su anbarı yenidən qurulub, Ağdam rayonunda “Xaçınçay” su anbarı yenidən qurulub. Laçın rayonunda tamamilə yenidən qurulmuş “Zabuxçay” su anbarı bu gün artıq istismardadır. Azad edilmiş ərazilərdə daha iki böyük su anbarının - “Həkəriçay”, “Bərgüşadçay” su anbarlarının tikintisi də nəzərdə tutulur və artıq hazırlıq işləri gedir. Yəqin ki, biz bu il artıq praktik işlərə başlayacağıq”, - deyən dövlət başçısı vurğulayıb ki, su mənbələri hər bir ölkə üçün çox önəmlidir. Bizim su mənbələrinin təqribən dörddəbir hissəsi vaxtilə işğal altında olmuş ərazilərdə formalaşır. Bu su mənbələrinin üstünlüyü də odur ki, bunların əksəriyyəti Azərbaycan ərazisində formalaşır. Yəni başqa ölkələrdən asılılıq ərazilərimizin qaytarılması nəticəsində böyük dərəcədə azalıb. Bizim digər əsas su mənbələrimiz xaricdə formalaşır - Kür çayı, Araz çayı, Samur çayı. Əlbəttə ki, bu sahəyə olan diqqət bu həssas məsələni də nəzərə almalıdır: “Bu gün dünyada iqlim dəyişikliyi ilə bağlı ciddi narahatlıq hökm sürür. Bir çox ölkələr artıq bundan ciddi zərər görür. Bizim su təhlükəsizliyimizlə bağlı olan bütün məsələlər sistem şəklində öz həllini tapır. Qeyd etdiyim kimi, son 20 il ərzində ancaq sadaladığım, - halbuki görülən işlər qat-qat çoxdur, - layihələr onu göstərir ki, əgər vaxtında bu addımlar atılmasaydı, bu gün su təhlükəsizliyimizlə bağlı olan məsələlər bizim üçün çox ciddi problemlər yarada bilərdi. Bizim məqsədimiz isə əhalini və sənayeni, kənd təsərrüfatını dayanıqlı su ilə təmin etməkdir, su mənbələrini qorumaqdır, su anbarlarının potensialını artırmaqdır, uçotu tam yaratmaqdır və mövsüm gələndə suları yığmaqdır ki, sonra il boyunca onlardan istifadə edək”.



Dövlət başçısı bildirib ki, Bakının və Abşeron yarımadasının içməli su problemləri əfsuslar olsun ki, uzun illər ciddi problem kimi qarşımızda durur: “Qeyd etdiyim kimi, bu istiqamətdə müəyyən işlər görülüb. Ancaq mən hesab edirəm, vaxt gəlib çatıb ki, genişmiqyaslı və müfəssəl dövlət proqramı qəbul edilsin. Bu proqram Bakı şəhərini, onun qəsəbələrini, Sumqayıt şəhərini və Abşeron rayonunu əhatə edəcək. Bir müddət bundan əvvəl mənim göstərişimlə proqramın hazırlanması prosesi başlamışdır və demək olar ki, proqram hazırdır. Biz bu gün həm bu proqramı müzakirə edəcəyik, eyni zamanda, görülmüş işlərdən danışacağıq və görüləcək işlərlə bağlı müzakirə aparacağıq”.

Bu proqramın əsas məqsədi, qeyd etdiyim kimi, Bakı və Abşeron yarımadasını dayanıqlı içməli su ilə təmin etməkdir. Proqram 2035-ci ilə qədər icra olunmalıdır. Prezident vurğlayıb ki, bu fakt özlüyündə göstərir ki, nə qədər genişmiqyaslı proqramdır, çünki vaxt lazımdır biz bunu tam icra edək: “Proqramın icrası üçün maliyyə mənbələri müəyyən edilib. Bu, iki mənbədən maliyyələşəcək, həm dövlət büdcəsi hesabına, həm də xarici kreditlər hesabına. Deyə bilərəm ki, son illər ərzində burada da aparılan islahatlar imkan verdi ki, biz xarici borcumuzu böyük dərəcədə aşağı salaq və salmışıq da. Bu gün dünya miqyasında xarici borcun ümumi daxili məhsula nisbətdə Azərbaycan dünyada aparıcı yerlərdədir, bu, cəmi 6 faizdən bir qədər çox təşkil edir. Yəni bu, deməyə əsas verir ki, bu gün biz daha çox xarici kreditlərə müraciət edə bilərik, xüsusilə nəzərə alsaq ki, dünyanın aparıcı maliyyə təsisatları bizə müraciətlər edirlər”.

Dövlət başçısı deyib ki, biz bu proqramı daxili vəsait hesabına da icra edə bilərdik. Ancaq ölkə qarşısında duran bir çox məsələlər var. Həm Qarabağın, Şərqi Zəngəzurun bərpası, ölkəmizin hərbi gücünün artırılması və həm də digər layihələr, sosial layihələr. “Ona görə qeyd etdiyim kimi, biz iki mənbədən istifadə edəcəyik. Proqramın icrası nəticəsində yeni su anbarları tikilməlidir. Onların sayı 30-a yaxın olacaq. Bu da çox böyük, genişmiqyaslı infrastruktur layihələridir. Sayğaclaşdırma 100 faizə çatdırılmalıdır. Bu gün fasiləsiz içməli su ilə təmin olunan əhali 70 faiz təşkil edir. Proqramın icrası nəticəsində bu, 95 faizə çatacaq. Bakının, Sumqayıtın, Abşeron rayonunun və 64 yaşayış məntəqəsinin su təchizatı böyük dərəcədə yaxşılaşacaq. 200 kilometrdən çox magistral kanallar və bir o qədər paylayıcı şəbəkə tikiləcək və yenidən qurulacaq”, - söyləyən Prezident İlham Əliyev qeyd edib ki, bu gün problemlərdən biri həm də itkilərlə bağlıdır. Əgər itkilər aşağı səviyyədə olsaydı, hətta mövcud su ehtiyatı bizə bu gün kifayət edərdi. Halbuki biz baxmalıyıq, gələcəyi də hesablamalıyıq. Çünki əhali artır, sənaye artır, təbii ki, tələbat da artır: “Ona görə itkilərin kəskin azaldılması əsas məsələlərdən biridir. Bu gün bu sahədə itkilər təqribən 40-45 faizdir və qeyd etdiyim kimi, proqramın icrası nəticəsində bu, kəskin azalmalıdır. Bu gün kanalizasiya xidməti göstərilən əhali cəmi 50 faiz təşkil edir. Proqramın icrası nəticəsində bu, 95 faizə çatdırılmalıdır. Leysan yağışları yağan kimi şəhər nəqliyyatı iflic vəziyyətinə düşür, çox ciddi problemlər yaşanır. Düzdür, bu, təkcə Bakıda, Azərbaycanda deyil. Biz televiziya verilişlərində dünyanın istənilən yerində bunu görürük. Hətta ən inkişaf etmiş hər ölkənin şəhərlərində də daşqınlar adi hal alıb. Heç bir şəhərin infrastrukturu imkan vermir ki, əgər şiddətli leysan yağışları bir neçə gün davam etsə, bunu idarə etmək mümkün olsun. Ancaq buna baxmayaraq, bizim də bu sahədə zəif yerlərimiz kifayət qədər çoxdur. Ona görə yağış sularının idarə olunması üçün Bakının 30 küçəsində yeni kollektor şəbəkəsi də qurulacaq və bunun çox böyük faydası olacaq”.

Dənizə buraxılan suların 100 faiz təmizlənməli olduğunu deyən Prezident İlham Əliyev Xəzər dənizinin çirklənməsinin əsas amillərindən birinin də bu olduğunu söləyib. Ona görə burada da lazımi əlavə tədbirlər görüləcək. Hövsan sutəmizləyici stansiyasının modernləşdirilməsi və potensialının genişləndirilməsi də gündəlikdə duran məsələdir: “Su sektorunda rəqəmsal idarəetmə sistemi də tətbiq edilməlidir. Mən artıq bu barədə məlumat verdim. Bir daha demək istəyirəm ki, Abşeron yarımadasının su təchizatını yaxşılaşdırmaq üçün ilk dəfə olaraq ölkəmizdə duzsuzlaşdırma zavodu inşa ediləcək. Bu prosesə start verildi. Bunun üstünlüyü ondan ibarətdir ki, bu, sırf xarici investisiyalar hesabına həyata keçiriləcək layihədir. Bu imkan verəcək ki, biz Bakıya və Abşeron yarımadasına gələn suların həcmini artıraq. Bu sahədə texnoloji inkişaf da göz önündədir. Bizim Xəzər dənizinin suyu o qədər də duzlu deyil, yəni tam əminlik var ki, duzsuzlaşdırma nəticəsində əhali təmiz və keyfiyyətli içməli su ilə təmin ediləcək və eyni zamanda, suvarma üçün də böyük mənbə yaranacaqdır. Samur-Abşeron su kanalı. Vaxtilə biz bu kanalı yenidən inşa etmişik. Bu, tam beton kanaldır və orada itkilər kifayət qədər azdır. Ancaq yenə də bu kanalın infrastrukturunun inkişafı ilə bağlı tədbirlər nəzərdə tutulur ki, “Ceyranbatan” su anbarı dayanıqlı su ilə təmin edilsin. Bu gün Bakıya beş mənbədən su daxil olur. Altıncı mənbə duzsuzlaşdırma zavodu olacaq və əlbəttə ki, bu axın tam təmin edilməlidir”.

Dövlət başçısı onu da bildirib ki, son 20 il ərzində həyata keçirdiyimiz layihələrdən biri də tamamilə yenidən qurulmuş Oğuz-Qəbələ-Bakı su kəməridir. Əgər bu su kəməri tikilməsəydi, bu gün Bakıda su qıtlığı özünü çox ciddi şəkildə göstərmiş olardı: “Qeyd etdiyim kimi, proqram çox genişdir, çox konkretdir. Bütün vəzifələr orada qoyulub, nəzarət də təmin ediləcək, həm Hökumət tərəfindən, həm də Prezident Administrasiyası tərəfindən. İctimai nəzarət də əlbəttə ki, mütləq olmalıdır. Bu proqramın icrası mətbuatda geniş işıqlandırılmalıdır ki, Azərbaycan vətəndaşları, xüsusilə Bakı və Abşeronda yaşayan insanlar görsünlər, bilsinlər ki, nə vaxt hansı məsələ öz həllini tapır və yubanmalar da olmamalıdır. Çünki yenə də deyirəm, proqram 2035-ci ilə qədər nəzərdə tutulur. Biz hesab edirdik ki, bunu daha da tez bir zamanda etmək mümkündür. Ancaq tələsməmək üçün və bütün işləri keyfiyyətlə təşkil etmək üçün qərara gəldik ki, təxminən 10 illik proqramdır, yəni kifayət qədər vaxt var, ancaq bir gün də yubanma olmamalıdır”.



Müşavirədə Baş nazirin müavini Şahin Mustafayev, Dövlət Su Ehtiyatları Agentliyinin sədri Zaur Mikayılov da çıxış ediblər.

# Akademik Tofiq Hacıyev İlham Əliyev haqqında nə demişdi?...

*Alqış HƏSƏNOĞLU,*
*"Yeni Azərbaycan" qəzetinin baş redaktoru*

Azərbaycan Prezidentinin yerli televiziya kanallarına müsahibəsi (5 yanvar 2026) mənə türkoloq alim, mərhum akademik Tofiq Hacıyevi xatırlatdı...

Tofiq Hacıyev mənim Ali məktəb müəllimimdi.

Həm də atamla ötən əsrdə tələbəlik həyatını paylaşmışdı.

ADU-nun filologiya fakültəsində birgə oxumuşdular.

İmkan daxilində görüşürdük.

Yeri gəlmişkən, Onun Elmlər Akademiyasının müxbir üzvü seçilməyi "müstəsna" şəraitdə alınmışdı.

2001-ci ildə Azərbaycan Milli Ellmlər Akademiyasına seçkilər keçirilirdi.

Seçkinin nəticəsini Ulu Öndərimizə məruzə edərkən Heydər Əliyev, - Bəs Tofiq Hacıyev nə oldu, - soruşubmuş.

Milli insanlara xüsusi "sevgisi" olan Ramiz Mehdiyev və onun başqa bir "əqidə" ortağı deyir ki, səsvermənin yekunlarına görə Tofiq Hacıyev geridə qalır .

Onda Heydər Əliyev tapşırıq verir ki, dilçilik üzrə əlavə bir yer ayırın, Tofiq Hacıyev mütləq Akademiyada təmsil olunmalıdır.

Beləliklə, Heydər Əliyevin təkidi və dəstəyi ilə Tofiq müəllim həmin il Akademiyanın müxbir üzvü seçilmişdi.

Mərhum akademik hər görüşümüzdə bu faktı ehtiramla vurğulayırdı.

Bir dəfə Tofiq müəllim dedi ki, fikir vermişəm "yevrovijion" ("eurovision") sözünü Azərbaycan dilində ən dəqiq və düzgün tələffüz edən İlham Əliyevdir: - Avroviziya.

Və əlavə etdi ki...

Bu, Prezidentin təkcə dilimizə sayğısını göstərmir, bir çox dərin mətləbdən xəbər verir:

"İlham Əliyev milli liderdir.

Millətinin marağını zərrə qədər belə kimsəyə güzəştə getməz.

İlham Əliyev yabançı idelojilərin sırf texniki tərcümə üzərindən ictimai - siyasi, mənəvi mühitimizə daxil olmasına qarşı barışmaz mövqedə dayanır.

İlham Əliyev anlayışlara münasibətdə fövqəladə həssasdır.

Prezident bilir ki, mili şüurun, alt düşüncənin formalaşması birbaşa anlayışlarla necə davranmağımızdan asılıdır".

İlham Əliyev haqlı olaraq xarici kəlmələrin asanlıqla (tələbat və zərurət olmadan) məişətimizə yol tapmasını dilimiz üzərindən milli kimliyimizə yönəlmiş təhdid kimi dəyərləndirir.

"Çox dil bilmək yaxşıdır, mən də onun tərəfdarıyam. Amma sən xarici dillərdə lazım olan vaxtda danış, biz öz dilimizi qorumalıyıq. Xarici kəlmələr dilimizi pozur, zənginləşdirmir və milli kimliyimizi də sarsıdır, damcı-damcı, yavaş-yavaş. Bəlkə də özümüz heç buna fikir vermirik, damcı-damcı sarsıdır.

Ona görə Azərbaycan dilini qorumaq hər birimizin vəzifəsidir. Bunu mən tam əminliklə deyirəm və hamını bu mübarizəyə dəvət edirəm".

Əlbəttə ki, bu Prezident tərəfindən ilk nümunə deyil.

Azərbaycan Prezidenti hər fürsətdə dilimizin 1-ci qayğıkeşi olduğunu nümayiş və sübut edir.

Hələ bir neçə il əvvəl Valday diskussiya klubunda İlham Əliyev elə vacib bir məqama toxunmuşdu ki...

Prezident dilimizin saflığı uğrunda hər kəsi mübarizəyə səsləyir.

Ümumiyyətlə, mübarizə İlham Əliyevin alın yazısı, Onun həyat tərzidir.

Mübarizə - Onun liderlik missiyasının, siyasi həyatının gündəlik normasıdır...

Mən Onun fəaliyyətini (təbii ki, mübarizəsini) 4 istiqamət üzrə təsnif etmək istərdim.

### 1. Dövlət quruculuğunun təkmilləşməsi ...

İndi demək çox asandır: 1993-cü ildə xalqın tələbi ilə Heydər Əliyevi hakimiyyətə dəvət etdilər.

Amma hara və hansı hakimiyyətə?

Soyuqqanlı düşünsək, axı 1993-cü ildə hakimiyyət və dövlət adına heç bir nişanə, əlamət gözə çarpmırdı.

Cəmiyyət parçalanmış,

Dövlət çilik-çilik olmuşdu.

(Bu, birmənalı olaraq belıydi:

Dövlət yoxdu.

Çünki dövləti qurmağa məsul olan hakimiyyətin özü pərgar deyildi.

Hakimiyyət yoxdu.

Çünki hakimiyyəti qurmalı olan nüfuz ünvanı, iqtidar sahibi yoxdu.

Doğrusu, o zaman yeganə bir İqtidar vardı.

Ancaq o Bakıda yox, Naxçıvanda məhdud imkanlar çərçivəsində yaşayır və çalışırdı.

Təəssüf ki, siyasətə gəldiyi gündən dünya erməniliyinin yuxusunu qaçıran Heydər Əliyevi həm də AXC-Müsavat birliyi hədəf seçmişdi.

Adıkeçən müsahibədə İlham Əliyev 907-ci düzəlişə yerli hakimiyyətin laqeydliyindən də danışdı.

Əlbəttə ki, bu biganəlik əsassız ola bilməzdi.

Həmin gün - 24 oktyabrda erməni lobbisinin təsiri ilə Konqres 907-ci düzəlişə səs verəndə, o zamankı Azərbaycan rəhbərliyi daha "vacib" işlərlə məşğul idi: Heydər Əliyevə qarşı özünün sui-qəsd və çevriliş planını həyata keçirməyə çalışırdı.)

Bir zavod direktorunu (Ayaz Mütəllibovu ) devirib onu əvəzləyən şərqşünaslıq mütəxəssisi Əbülfəz Elçibəy başqa bir zavod direktorunun qarşısında aciz qalmışdı.

Sürət Hüseynov AXC-Müsavat cütlüyünü yun kimi əlçimləyib daraqdan keçirir və küləyə verirdi.

Həmin ilin qızmar yay günlərində Heydər Əliyevin qarşısında bir müqəddəs və çətin vəzifə vardı:



Siyasi Müstəqiliyini elan etmiş bir mürəkkəb coğrafiyada Dövlət yaratmaq.

Siyasi müstəqilliyi dövlətçilik məzmunu və idarəçilik proqramı ilə zənginləşdirmək.

Resurslar isə minimum həddə, hətta yox dərəcəsində idi.

Heydər Əliyevin arsenalında yalnız iki amil vardı: Özünün zəngin liderlik, siyasi, dövlətçilik təcrübəsi və xalqın Ona sonsuz inamı.

Onun özünə və sözünə olan yüksək etimad.

Obrazlı desək, Heydər Əliyev bu gün artıq Qafqazın lideri sayılan Azərbaycan dövlətini güclə, silahla, pulla (bunların heç biri mövcud və əlçatan deyildi) deyil, televizorla (Azərbaycan Dövlət televiziyası ilə) birlikdə yaratdı.

Bəli, Heydər Əliyev, xaotik prosesləri quruculuq relsləri üzərinə kökləyərək, dövlət qurdu.

İlham Əliyev bu dövlətin nüfuzunu bərpa etdi.

İlham Əliyev "dövlət vətəndaşa xidmət etməlidir" deyir.

Eyni zamanda, dövlətlə vətəndaş arasındakı məsafənin ölçülərini, sərhədini müəyyənləşdirir.

Dövlət hər bir kəs, hər bir vətəndaş üçün yaxın olduğu qədər də əlçatmaz, toxunulmaz olmalıdır.

Kimsə dövlətə qarşı dil uzada, əl qaldıra bilməz.

Dəxli yoxdur, ağlını və ya yolunu azmış belə bir asinin neçə yaşı var? 20, 30 yoxsa 87...

### 2. Ordu quruculuğu...

İndi uğurları təhlil və təqdim etmək çox rahatdır.

Milli dövlətimiz, milli ordumuz var!

Dövlətə, Orduya sahiblənmək! Hər kəs bunun nə demək olduğu haqda pafosla, bələğətlə saatlarla danışa bilər.

Dövlət olmayanda, ordu olmayanda, nələr baş verir?

Bu barədə yalnız bu sualın cavabını öz məşəqqətli, iztirablı taleyində yaşayanlar dəqiq bilir.

Xocalıda ermənilərə əsir düşmüş bir sakinin dedikləri kimi:

"Bizi bir tövləyə yığdılar.

Ermənilər atasının arxasına qısılmış 13 yaşlı bir qızı dartıb qopardılar.

Heç kim kömək edə bilmədi.

Hamının gözü önündə qızın döşlərini kəsib atasına atdılar.

Kişi havalanıb özünü tövlənin qapısına çırpdı, uçurumdan qarın-çovğunun içinə atıldı, öldüsü-qaldısı bilinmədi..."

Bizim bütün faciələrimizin, etnosun ikiyə bölünməyindən tutmuş Xocalı soyqırımınadək bir səbəbi var-dövlətin və ordunun olmaması.

İlham Əliyev bizə döyüşməyi və qalib gəlməyi öyrətdi.

Hazırda diqqətimizi cəlb etməyən fövqəladə bir proses gedir.

Bu gün əsgəri xidmətini başa vuran gənclərimiz artıq məğlub ordunun yox, Qalib ordunun sıralarından təxris olunur.

Bu, o deməkdir ki, milli ordumuz cəmiyyətimiz (və gələcəyimiz ) üçün hava və su kimi gərəkli olan müstəqil, Qalib Xarakterlər istehsal edir.

Bölgədəki separatizm dağı dibindən uçurulub.

Dağ uçanda suların çayların səmti, relyefi dəyişdiyi kimi Ali Baş Komandan və onun əsgəri geosiyasətinin mahiyyətini və səmtini yeniləyib.

Qələbəmiz qarşısıalınmaz bir prosesə çevrilib.

Bu gün dünya nizamı redaktə olunur...

Hadisələrə klassik baxış yenidən gündəmə qayıdır.

Super dövlətin öz güc nazirliyinə klassik "Müharibə" adını qaytarması da təsadüfi sayılmamalıdır.

Görünür, dünya öz keçmişini xatırlayıb (alt düşüncə üzərindən) yeni qərarlar qəbul etməli olacaq.

Bu gün "ordun varsa, yurdun var" ata sözü aktual səsləndiyi qədər də məsuliyyət aşılayır.

Biz də bir xalq olaraq orklə, qürurla "Ordumuz var!" deyə bilirik...

### 3. Alt şüurun bərpası və mühafizəsi...

Tez tez gileylənirik...

Bəzən də israrla və haqlı olaraq tələb edirik:

Və daha çox umuruq.

Nə üçün Böyük Zəfər mövzusunda romanlar, povestlər, şeirlər, bəstələr və sair mükəmməl yardıcılıq nümunələri ərsəyə gəlmir?

Sual çox ciddidir.

Ləngimənin ciddi səbəbləri də var.

Öncə zaman keçməli...

Və zaman keçdikcə Qələbəmiz alt şüurumuzda yerbəyer olmalıdır.

Məhz bundan sonra aktiv yaradıcılq enerjisi özünü bürüzə verə bilər.

Baxmayaraq ki, Qələbəmizin 6-cı ilinə qədəm qoymuşuq, hələ də Qarabağa hər səfərimizdən sonrası deyirik:

"Şuşaya getmişdik.

Xankəndini ziyarət etdik.

Kəlbəcəri gəzib gəldik.

Ağdam tikilir qurulur.

Qarabağ cənnətə dönür...

Adamın heç inanmağı gəlmir."

İnanmağımız gəlmir!..

Bu, sadəcə, heyrət nidası deyil.

Həm də bir diaqnozdur.

Bu, alt şüurumuzun ağır travmaya məruz qalmasından - texnologi dillə ifadə etsək, "format" olunmasından xəbər verir.

Alt şürumuz zədələnib, yanlışlarla yüklənib, uğursuzluqlara, məğlubiyyətlərə isinişib.

Bu səbəbdən Qələbəyə çevik reaksiya verə bilmir:

Qələbə faktını bir möcüzə sanır və təəccüblənməklə kifayətlənir.

Təbii ki, bu, Prezidentin şərh etdiyi kimi, əsrlər boyu basqı altında yaşamanın, müstəmləkə olmağın psixoloji fəsadıdır...



Bu kontekstdə Tofiq müəllim müşahidələri sərrastdır.

İlham Əliyev anlayışlarla həssas davranır.

Həm peşəkarcasına, həm də alicənablıqla.

Qarabağ mövzusunda isə Prezidentin həssaslığı fövqəladə bir təəssübkeşliklə sığortalanır.

Prezidentin Valday diskussiya klubundakı çıxışından bir sitata diqət yetirək:

"Dağlıq Qarabağ xalqı yoxdur.

Qarabağın erməni əhalisi var".

Burada Prezident onilliklər boyu dilimizdə özünə yer edə bilmiş, təəssüf ki, hələ də dövriyyədə qalan "Qarabağ ermənisi" anlayışına qarşı çıxır.

Çünki bu anlayışda mənsubiyyət, bir-birinə bağlılıq ifadə olunur, Qarabağın erməniyə, ermənin Qarabağa aid olduğu alt şüura yeridilir, təlqin edilir.

Elə Qarabağın işğalı da bizim alt düşüncəmizdən başlayıb: əvvəl təhtəlşüurumuzu zərərsizləşdirib, sonra işğalı hərbi coğrafi müstəvidə fakta çeviriblər.

(Yeri gəlmişkən, bizdən fərqli olaraq ermənilər heç vaxt Qərbi azərbaycanlılara "Ermənistan azərbaycanlıları" deməyiblər, onları həmişə, bir qayda olaraq türk adlandırıblar...)

İstənilən mövzuda İlham Əliyev anlayışları istismar etmir.

Əksinə, mövzuya yeni impuls və enerji verir.

Məsələn, Cənubi Azərbaycan mövzusunu götürək.

Hər birimiz üçün doğma və ağrılı olan bu mövzu populistin, naşının yalançı vətənpərvərin ixtiyarında siyasi demoqogiya səviyyəsinə endirilir.

Prezidentin təqdimatında isə Cənub həsrəti və iddiası mübahisə doğurmayan bir konsept statusu qazanır.

İlham Əliyev deyir: "Biz heç kimin daxili işlərinə qarışmırıq.

Sadəcə, onu deyirik ki, bizim qonşu ölkədə yaşayan soydaşlarımızın ana dili ilə həyəcanlarını başa düşmək lazımdır.

Bəllidir ki, dil tədrisdən, təlimdən kənarlaşanda ədəbi komponentlərini itirir, bu da ki, dilin məhv olma təhlükəsini yaradır. Və biz bu həqiqəti həmişə dilə gətirəcəyik".

İlham Əliyev mövqeyini elə ifadə edir ki, kimsə onun dediklərini mübahisələndirmək barədə düşünə bilmir.

Avropanın, Qərbin ikili standartını elə ustalıqla izah edir ki...

"Ermənilər bizim torpaqları işğal edəndə Qərb siyasətçiləri kor olurlar.

Amma, biz torpaqlarımızı işğaldan azad edəndə qərb siyasətçiləri hər şeyi görürlər.

Hətta binokldan da istifadə edirlər.."

Geosiyasi qarşıdurmaların səbəb-nəticəsinə dair siyasi təlimat sayıla biləcək açıqlamalar verir.

"Neçə illərdir ki, Gürcüstana, Ukraynaya NATO-ya üzvlüklə bağlı vədlər verirlər.

Bu ölkələrdə vəziyyət necədir, hamıya məlumdur.

Amma Azərbaycan heç bir geosiya gərginlik yaratmadan NATO-nun ikinci ordusu ilə hərbi əməkdaşlıq müqaviləsi imzalayıb".

Avropa liderləri isə Ukraynaya NATO-nun üzvü olmadan təhlükəsizlik zəmanəti verməyin mümkünlüyü barədə yalnız son günlər düşünməyə və danışmağa başlayıblar...

### 4. Prezidentin Mübarizəsində daha vacib bir yön cəmiyyət quruculuğudur.

Ötən ilin oktyabrında başlayan "mehdiyev işi" cəmiyyət quruculuğunda yeni mərhələnin anonsu sayıla bilər.

Prezidentin dilimizin təmizliyi uğrunda çağırışını da bu prosesə növbəti təkan kimi dəyərləndirmək düzgün olardı.

Cəmiyyətimiz durulmalı, təmizlənməli, yenilənməlidir.

Elin təmizliyi, dilin təmizliyindən başlayır...

Mənim başqa bir müəllimim də var, akademik Nizami Cəfərov.

Nizami müəllim dilimizlə tariximizə aid mükəmməl konseptlərin müəllifidir.

Akademik müsahibələrinin birində belə bir fikir söyləmişdi:

"Təəssüf ki, bizim vergülə qarşı əlahiddə bir həssaslığımız var, harda "ki" görürük vergül qoyuruq"...

Onda mən müəllimimə dedim ki, icazənizlə bu fikrinizə bir düzəliş etmək istəyirəm:

Nizami müəllim, Sizin fikriniz İlham Əliyevə qədərki dövrə aiddir.

İlham Əliyev Azərbaycan xalqına Nidanı sevdirdi!

Bu gün Azərbaycan başlatdığı və qoşulduğu istənilən prosesə Nida qoymaq əzmindədir!










# "Somalilənd"in "müstəqilliyi" tanınmır

## Azərbaycan Somalinin ərazi bütövlüyünü dəstəkləyir

*Nardar BAYRAMLI*

Azərbaycanın çoxvektorlu xarici siyasətində dünya ölkələri ilə əlaqələrin inkişaf etdirilməsi mühüm yer tutur. Ölkəmizin yeni mərhələdə formalaşan iqtisadi-siyasi, ticari münasibətlər sisteminə verdiyi töhfələr, irəli sürdüyü önəmli təşəbbüslər beynəlxalq aləmdə yüksək dəyərləndirilir. Bu isə nəticədə ölkəmizə olan müsbət maraqları artırır. Burada əsas məqamlardan biri də Azərbaycanın beynəlxalq münasibətlər sistemində bərabərhüquqlu əməkdaşlığı təbliğ etməsidir.

Son illər Azərbaycanın bir sıra Afrika ölkələri ilə də əlaqələri genişlənir. Bu baxımdan, ölkəmizin Somali ilə münasibətləri xüsusi vurğulanmalıdır. Azərbaycan ilə Somali arasında diplomatik əlaqələr 2004-cü ilin mart ayının 22-də qurulub. İki ölkə arasında diplomatik münasibətlərin qurulmasından ötən dövr ərzində, xüsusilə son illərdə Azərbaycan-Somali təmaslarının artması əməkdaşlıq perspektivlərinin müzakirəsində faydalı rol oynayır. Azərbaycanla Somali arasında siyasi məsləhətləşmələr haqqında imzalanmış sazişə uyğun olaraq, əməkdaşlığın genişləndirilməsində bu kimi mexanizmlərdən istifadə olduqca vacibdir. Bir sıra istiqamətlər, o cümlədən kənd təsərrüfatı, balıqçılıq, neft və qaz sənayesi, yaşıl enerji, humanitar, təhsil sahələri üzrə əməkdaşlığın inkişafı üçün kifayət qədər geniş potensial mövcuddur. Bu istiqamətlərdə qarşılıqlı təmasların və təcrübə mübadilələrinin aparılması xüsusi əhəmiyyətə malikdir.

Qeyd edək ki, Somali Federativ Respublikasında Şərqi Afrikada "Afrika buynuzu" deyilən coğrafi bölgədə yerləşir. Bu ölkə də separatizmdən əziyyət çəkir. Belə ki, "Somalilənd" deyilən ərazi özünün "müstəqilliyini" elan edib ki, bu da beynəlxalq hüquq normalarına ziddir. Əslində, "Somalilənd" de-yure Somali daxilində muxtar bölgədir. Yalnız bir dövlətdən başqa, heç bir ölkə onun "müstəqilliyini" tanımayıb.

Azərbaycan da Somali Federativ Respublikasının beynəlxalq səviyyədə tanınmış sərhədləri daxilində suverenliyinə, birliyinə və ərazi bütövlüyünə tam dəstəyini bəyan edib. Belə ki, ötən ay Xarici İşlər Nazirliyi bəyanat verərək bildirib ki, Somali Federativ Respublikasının "Somalilənd" regionunun tanınması beynəlxalq hüququn norma və prinsiplərinə və BMT Nizamnaməsinə ziddir. Qeyd edilib ki, Azərbaycan öz ərazisində, beynəlxalq hüquqa zidd olaraq, xarici hərbi işğal və separatizmlə bağlı ağrılı təcrübə yaşayıb. "Azərbaycan Respublikası bu prinsipləri və öz təcrübəsini rəhbər tutaraq, bütün dövlətlərin suverenliyinin, ərazi bütövlüyünün və siyasi müstəqilliyinin qorunub saxlanmasına qəti şəkildə sadiq qalır və beynəlxalq ictimaiyyəti məsuliyyətlə və beynəlxalq hüquq normalarına tam uyğun hərəkət etməyə çağırır",-deyə bəyanatda vurğulanıb.

Yeri gəlmişkən, bugünlərdə Azərbaycanın xarici işlər nazirinin müavini Yalçın Rəfiyev İslam Əməkdaşlıq Təşkilatının (İƏT) xarici işlər nazirləri şurasının Somali ilə bağlı fövqəladə iclasında iştirak edib. Səudiyyə Ərəbistanının Ciddə şəhərində baş tutan iclasın məqsədi Somalinin "Somalilənd" bölgəsinin müstəqil dövlət kimi tanınmasına qarşı ölkənin suverenliyi və ərazi bütövlüyünə dəstək vermək, habelə bu istiqamətdə atıla biləcək birgə addımların müzakirə etmək olub.




İclasda çıxış edən Y.Rəfiyev Azərbaycanın Somali Federal Respublikasının suverenliyinə, milli birliyinə və ərazi bütövlüyünə dəstəyini ifadə edib. Nazir müavini İƏT-in Somali üzrə Təmas Qrupunun fəal üzvü kimi Azərbaycanın beynəlxalq ictimaiyyətin, o cümlədən İƏT üzv ölkələrinin məsələ ilə bağlı kollektiv səylərini dəstəkləyəcəyini nəzərə çatdırıb. Ölkəmizin beynəlxalq hüququn norma və prinsiplərinə sadiqliyi vurğulanaraq, müxtəlif regionlarda, o cümlədən "Afrika Buynuzu" və Qırmızı dəniz hövzəsində sülh, sabitlik və təhlükəsizliyin bərqərar olması üçün məsuliyyətli və beynəlxalq hüquq çərçivəsində davranmağın əhəmiyyəti ilə bağlı beynəlxalq ictimaiyyətə çağırış edilib.

İƏT xarici işlər nazirlərinin 22-ci fövqəladə iclasının sonunda üzv dövlətlər tərəfindən Somali və onun ərazi bütövlüyünə birmənalı və qətiyyətli dəstək ifadə edən qətnamə qəbul olunub.

Qeyd edək ki, Somali İslam Əməkdaşlıq Təşkilatı ilə yanaşı Qoşulmama Hərəkatının da üzvüdür. Bu ölkə İƏT və Qoşulmama Hərəkatı çərçivəsində Azərbaycanla qarşılıqlı hörmətə, dəstəyə və həmrəyliyə əsaslanan mühüm əməkdaşlıq əlaqələrinə malikdir. Xatırladaq ki, ötən ilin fevral ayında Somali Prezidenti Hasan Şeyx Mahmud Azərbaycanda rəsmi səfərdə olub. Səfər zamanı dövlət başçılarının görüşü zamanı aparılan müzakirələr, imzalanan sənədlər əlaqələrimizi yeni müstəviyə yüksəldir. Səfər çərçivəsində iki ölkə arasında bir sıra sənədlər imzalanıb. Mətbuata bəyanat zamanı Prezident İlham Əliyevin dediyi kimi, imzalanmış sənədlər ikitərəfli əlaqələrimizi çox sahələrdə inkişaf etdirməkdə qarşılıqlı iradəmizi aydın şəkildə nümayiş etdirir. Ölkəmizin Somaliyə sərmayə yatırımlarının da böyük perspektivləri var.

Humanitar və mədəni əlaqələr də bu münasibətlərin dərinləşməsinə töhfə verir. Azərbaycanın müxtəlif humanitar fondları və təşkilatları Afrika ölkələrində səhiyyə, təhsil və ekoloji layihələr həyata keçirir ki, bu da qarşılıqlı etimadı daha da artırır. Bundan əlavə, Azərbaycanın enerji və kənd təsərrüfatı sahələrində qazandığı təcrübə Afrika ölkələri üçün maraqlı bir model ola bilər. Ölkəmiz Afrikada müxtəlif infrastruktur layihələrinə sərmayə yatıraraq yerli iqtisadiyyatı stimullaşdırmaqda maraqlıdır və bu addımlar Afrika dövlətləri tərəfindən müsbət qarşılanır.

Somali Azərbaycanın inkişaf modelini nümunə kimi qəbul edir. Məsələn, bu ölkənin başçısı ASAN Xidmət Mərkəzini ziyarət etdikdən sonra bu təcrübədən Somalidə istifadə olunacağını bəyan edib. Belə bir yanaşma Afrika ölkələrinin inkişafına real töhfə verməklə yanaşı, Azərbaycanın beynəlxalq nüfuzunun daha da artmasına şərait yaradır. Bütün bunların fonunda Azərbaycan separatizmdən əziyyət çəkən Somalinin ərazi bütövlüyünü dəstəkləyir. Çünki "Somalilənd" deyilən separatçı rejimin yaradılması beynəlxalq hüququn pozulmasıdır.

# Qızıl dəyərli investisiyaya çevrilməkdədir

## Azərbaycan qızıl ehtiyatlarının artırılması ilə bağlı strateji qərar qəbul edib



2026-cı ilin ilk ongünlüyü dünya birjalarında qızılın qiymətinin kəskin bahalaşması ilə müşayiət olunub. Yanvarın 11-də Nyu-Yorkun COMEX əmtəə birjasında qızılın bir troya unsiyasının qiyməti 93,8 dollar artaraq 4 min 594,7 dollar təşkil edib. Nyu-York Əmtəə Birjasında qiymətli metalın yeni fyuçers qiyməti isə 4600 dollar səviyyəsinə yüksəlib. Bu, qızılın birja satışlarındakı rekordu təzələməsidir. ABŞ-ın qiymətli metallar bazarı üzrə analitiklərinin fikrincə, qızılın qiyməti 2026-cı ildə də artmağa davam edəcək. Ümumilikdə, son 1 ildə dünya bazarında qızılın qiyməti 1,7 dəfə artıb. Son 6 ayda isə artım 1,2 dəfəyə çatıb. Təkcə ötən ilin dekabr ayında sarı metalın dəyəri 35 faiz bahalaşıb. "Bloomberg" tədqiqat institutunun hesablamalarına görə, 2026-cı ildə bu, qiymətli metalın birja qiymətləri 5500 dollara kimi yüksələ bilər.

### ABŞ-ın maliyyə siyasəti qızılın dəyərini yüksəldir

Qızılın bahalaşmasına ABŞ-da Donald Trampın yürütdüyü iqtisadi siyasətin təsirləri istisna deyil. Belə ki, Trampın yeni maliyyə siyasəti ucuz dollar, bahalı qızıl investisiyasına əsaslanır. Çünki dolların ucuzlaşması istehsal və ixracı yüksəldir ki, bu da Amerikadan qlobal bazarlara daha çox mal və əmtəələrin çıxışına səbəb olur. Bu siyasət nəticə etibarilə iqtisadi aktivliyi və ixrac gəlirlərini yüksəldir. Dollar ucuzlaşanda isə qızıl bahalaşır. Eləcə də virtual pulların bahalaşması stimullaşır, qiymətli metallar yeni dəyərlər qazanır.

Qızılın bahalaşmasına ABŞ-ın Federal Ehtiyat Sisteminin (FED) pul siyasətinin də təsirləri az rol oynamır. FED tərəfindən uçot dərəcəsinin aşağı salındıqda Amerika valyutası ucuzlaşır və qızıla tələbat artır. 2025-ci ildə FED uçot dərəcəsini 2 dəfə aşağı saldı ki, bu da pul siyasətinin yumşalması fonunda qızılın cəlbediciliyini artırıb.

Ümumiyyətlə, qızıl bir qiymətli metal olaraq qlobal iqtisadiyyatda daim real vəziyyət göstəricisi sayılır və hər il qızıl yığımlarının həcmi artır. Ümumdünya Qızıl Şurasının məlumatına görə, 2025-ci ildə dünya mərkəzi banklarının xalis qızıl alışı əvvəlki illə müqayisədə 50 faizdən çox artaraq 1000 tona çatıb. Dünyada investisiya aləti kimi qızıla tələbat isə 8 faizə yaxın artaraq 9 min tona yaxınlaşıb.

### 25 qızıl aktivinə malik ölkələr qrupunda

Baş verənlər qızıla həm investisiya kimi qlobal marağın artmasını, həm də bu sənaye sahəsinin investorlar üçün daha cəlbedici olmasını stimullaşdırır. Qızıla investisiya aləti kimi beynəlxalq investorların bu marağının artması pul və səhmlərlə nisbətdə bu qiymətli metalın maliyyə-investisiya bazarlarında üstünlüyünü də önə çıxarmağa başlayıb. Belə ki, qlobal səhmdarlar pul və blokçeynlər, qiymətli kağız və səhmlərdən daha çox qızıla investisiya qoymağı indi daha məqsədəuyğun sayır, eləcə də dünyanın iri şirkətləri, suveren fondları öz yığımlarını dollar və avro ilə nisbətdə qızıl portfelinə yerləşdirməyi faydalı hesab edirlər. İnvestorların əvvəlki illə müqayisədə bu qiymətli metala tələbatı ən azı 15 faiz artıb.

Dünya bazarında bu dəyərli metalın qiymət volatilliyi Azərbaycana da təsirsiz ötüşmür. Qızıl iqtisadiyyatda çətin zamanların təhlükəsiz




limanı rolunu oynadığından bütün investorlar kimi azərbaycanlı bank və fondlar, o cümlədən Mərkəzi Bank, Dövlət Neft Fondu öz portfellərində qızıl investisiyalarına üstünlük verməkdədir.

"Trade Economics" təşkilatının qiymətləndirilmələrinə əsasən, qızıl ehtiyatların həcminə görə Azərbaycan dünyada ilk iyirmi beşlikdə qərarlaşıb. Ehtiyatların həcminə görə isə ABŞ 8,133 min tonla dünyada birincidir. İlk üçlüyü isə Almaniya (3,350 min ton) və İtaliya (2,452 min ton) tamamlayır. Göründüyü kimi, Azərbaycan qızıl ehtiyatlarını kəskin artıran dövlətlərdəndir. Qızılın bahalaşması fonunda isə bu dövlət ehtiyatlarının daha da artması müşahidə edilməkdədir.

### Ötən il ehtiyatların idarə olunmasından 10 milyard dollar qazanılıb

Azərbaycanın çevik sərmayə siyasəti valyuta ehtiyatlarımızın daha da artmasına səbəb olub. Dövlət Neft Fondunun (DNF) investisiya portfelinin diversifikasiyası və gəlirliliyinin artırılması məqsədilə dövlət başçısının müvafiq fərmanı ilə "Azərbaycan Respublikası Dövlət Neft Fondunun valyuta vəsaitlərinin saxlanılması, yerləşdirilməsi və idarə edilməsi haqqında Qaydalar"a dəyişikliklər edilib və Fondun investisiya siyasətinə əsasən, yuxarı uzaqlaşma intervalı maksimum 4 faiz olmaqla, investisiya portfelinin məcmu dəyərinin 25 faizə qədəri qızıla investisiya edilməsi nəzərdə tutulub. Bu siyasətə uyğun olaraq, Neft Fondu qızıl rezervlərini artırıb, ümumi aktivlər portfelində qızıl altportfeli 30 sentyabr 2025-ci il tarixinə 184,8 ton təşkil edib.

Qeyd edək ki, Prezident İlham Əliyev yerli televiziya kanallarına müsahibəsində qızıl ehtiyatlarının səmərəli idarə olunmasına diqqət çəkərək ölkəmizin qızıl aktivlərinin artırılması ilə bağlı strateji kursun həyata keçirildiyini vurğulayıb. Bildirilib ki, ötən il qızıl ehtiyatlarının artırılması ilə bağlı yeni strateji qərar qəbul olunub və dövlət aktivlərinin artmasında Dövlət Neft Fondunun investisiya istiqamətlərinin şaxələndirilməsi xüsusi rol oynayıb. "Ötən il biz həm də qızıl ehtiyatlarımızı artırmaq üçün strateji qərar qəbul etdik. Biz geosiyasi müstəvidə cərəyan edən hadisələri açıqaydın görürdük və mən tamamilə əmin idim ki, qızılın qiyməti artacaq və qiymət kəllə-çarxa çıxdı. Beləliklə, bu qərar bizə çoxlu pul qazandırdı. Qızıl ehtiyatlarımızı artıraraq Dövlət Neft Fondu yalnız buna görə 10 milyard ABŞ dollarından artıq vəsait qazandı".

### Azad ərazilərdə qızıl dövrü başlayır

Azərbaycan həm qızıl istehsal edən ölkədir. 2025-ci ilin yanvar-noyabr aylarında ölkəmizdə 2815 kq qızıl istehsal edilib. Bu, ötən ilin müvafiq dövrü ilə müqayisədə 9,7 faiz artım deməkdir. Mövcud ehtiyatlar təsdiqləyir ki, ölkəmizdə qızılçıxarma sənayesinin perspektivləri çox ümidvericidir. Çünki işğaldan azad edilmiş ərazilərdə qızıl ehtiyatları kifayət qədər böyükdür. Hazırda azad edilmiş ərazilərdə qızılçıxarma sənayesində yeni mərhələ başlayıb. Kəlbəcər, Zəngilan, Cəbrayıl, Ağdərə rayonlarındakı qızıl yataqlarının hasilatına xarici investorlar cəlb edilib. Bu isə azad ərazilərin böyük valyuta gətirəcək zonaya çevrilməsinə, Azərbaycanın qızıl ehtiyatlarının artmasına səbəb olacaq.

Hazırda Azərbaycan hökuməti Kəlbəcər, Zəngilan, Cəbrayıl, Ağdərə rayonlarındakı qızıl yataqlarının hasilatına xarici investorları cəlb etməkdədir. Qardaş Türkiyənin "Eti Bakır A.Ş" və "Artvin Maden A.Ş" şirkətləri Kəlbəcərin "Qaşqaçay", "Elbəydaş" və "Ağduzdağ" filiz yataqlarında hasilata başlamaqdadır. Eləcə də digər zəngin mənbələr olan "Söyüdlü", "Qızılbulaq", "Vejnəli", "Dəmirli" yataqlarının işlənməsi üçün xarici investorların təklifləri nəzərdən keçirilir. Bu isə azad ərazilərin böyük valyuta gətirəcək zonaya çevrilməsindən xəbər verir. Nəzərə alsaq ki, azad edilmiş ərazilərdə çalışan investorlar torpaq, mənfəət, gəlir və s. vergilərdən, eləcə də qızıl və gümüş məhsullarının satışı əlavə dəyər vergisindən azad olunublar, bu halda qızıl sənayesinə marağın daha da artacağı şəksizdir.

*E.CƏFƏRLİ*

# Sülhün inkişafına real töhfə...

## Azərbaycanın regionda formalaşdırdığı etimad mühiti

Cənubi Qafqazda formalaşan yeni siyasi reallıq region üçün uzunmüddətli sülh və əməkdaşlıq perspektivlərini daha aydın şəkildə gündəmə gətirir. Onilliklər boyu qarşıdurma və etimadsızlıq mühitində mövcud olmuş region bu gün yeni mərhələyə qədəm qoyur. Bu mərhələnin əsas memarı isə heç şübhəsiz ki, Azərbaycan dövlətidir. 44 günlük Vətən müharibəsindən sonra yaranmış geosiyasi vəziyyət Bakıya yalnız hərbi və siyasi deyil, həm də iqtisadi və humanitar təşəbbüslər vasitəsilə sülh gündəliyini irəli aparmaq imkanı yaradıb.

Rəsmi Bakı dəfələrlə bəyan edib ki, regionda davamlı sabitlik yalnız qarşılıqlı maraqlara əsaslanan əməkdaşlıq mühitində mümkündür. Məhz bu yanaşmanın praktik təzahürü kimi Azərbaycanın Ermənistana taxıl yüklərinin tranzitinə icazə verməsi, eləcə də neft məhsullarının ixracı xüsusi əhəmiyyət daşıyır. Bu addımlar bir tərəfdən Azərbaycanın humanist və konstruktiv mövqeyini nümayiş etdirirsə, digər tərəfdən sülhün İrəvan üçün yaradacağı iqtisadi dividendləri açıq şəkildə ortaya qoyur. Bakı göstərir ki, sülh abstrakt anlayış deyil, konkret iqtisadi faydalar və rifah deməkdir. Azərbaycanın atdığı bu addımlar regionda etimadın bərpasına xidmət etməklə yanaşı, sülh prosesinin praktik əsaslar üzərində inkişafına da real zəmin yaradır.

### Neft məhsullarının növbəti partiyası yola salınıb...

Vurğulandığı kimi, Azərbaycanın əsas məqsədlərindən biri regionu qlobal iqtisadi-ticari marşrutların mühüm həlqəsinə çevirmək, eyni zamanda qonşu dövlətlər arasında münasibətləri normal qonşuluq və qarşılıqlı maraqlar müstəvisinə çıxarmaqdır. Ermənistanla münasibətlərin mərhələli şəkildə normallaşdırılması istiqamətində irəli sürülən təşəbbüslər Azərbaycanın konstruktiv və məsuliyyətli aktor olduğunu bir daha təsdiqləyir. Azərbaycanın Ermənistan üzərindən tətbiq etdiyi iqtisadi məhdudiyyətləri mərhələli şəkildə aradan qaldırması, bu ilin oktyabrında taxıl ixracının Azərbaycan ərazisi vasitəsilə həyata keçirilməsi mühüm siyasi və iqtisadi mesaj idi. İndi isə Bakının Ermənistana neft məhsullarının ixracına başlaması regional situasiyanın daha fərqli mərhələyə keçdiyini göstərir. Bu addım təkcə iqtisadi mahiyyət daşımır, eyni zamanda Azərbaycanın sülh prosesinə sadiqliyinin, sabitlik və qarşılıqlı asılılıq üzərində qurulan yeni regional düzənin tərəfdarı olduğunun bariz nümunəsidir.

Yeri gəlmişkən, bir neçə gün öncə Azərbaycandan Ermənistana neft məhsullarının növbəti partiyası yola salınıb. 1742 ton Aİ-95 benzin və 956 ton dizel olmaqla, ümumilikdə, 2698 ton (ümumilikdə, 48 vaqon) yük Biləcəri stansiyasından Ermənistana göndərilib. Qeyd edək ki, Azərbaycanla Ermənistan arasında sülh gündəliyinə uyğun olaraq ötən il dekabrın 18-də Azərbaycandan Ermənistana neft məhsullarının ixracına başlanılıb. Azərbaycan neft məhsullarının Ermənistana ixracı sırf kommersiya xarakterlidir və benzin beynəlxalq bazar qiymətlərinə uyğun satılır. Bundan əvvəl, ötən ilin 18 dekabrında Ermənistana 1220 ton Aİ-95 markalı avtomobil yanacağı göndərilib. Bu ixracat ötən ilin noyabrin 28-də Qəbələ şəhərində Azərbaycan Baş nazirinin müavini Şahin Mustafayev və Ermənistan Baş nazirinin müavini Mher Qriqoryanın görüşündə əldə edilmiş razılaşmaya əsaslanır.





### Region qlobal iqtisadi-ticari marşrutların əsas həlqəsinə çevrilir

Şərq-Qərb və Şimal-Cənub dəhlizlərinin kəsişməsində yerləşən Azərbaycan yerləşdiyi geostrateji coğrafiyanın üstün mövqeyindən yalnız öz milli maraqları üçün deyil, bütün regionun inkişafı naminə istifadə etməyə çalışır. Bakı üçün əsas prioritet qonşu dövlətlərlə münasibətləri normal qonşuluq, qarşılıqlı hörmət və iqtisadi maraqlar müstəvisinə çıxarmaqdır. Ermənistana neft məhsullarının nəqli də məhz bu geniş strateji baxışın tərkib hissəsidir. Azərbaycan açıq şəkildə nümayiş etdirir ki, regionda əməkdaşlıq mühitinin formalaşması bütün tərəflər üçün faydalıdır. İqtisadi əlaqələrin bərpası Ermənistanın da regional layihələrdən kənarda qalmamasına, izolyasiya vəziyyətindən çıxmasına imkan yarada bilər. Bakı bununla göstərir ki, sülh yalnız siyasi bəyanatlarla deyil, real iqtisadi inteqrasiya ilə də möhkəmlənə bilər. Azərbaycan regional lider kimi məsuliyyətli mövqe ortaya qoyaraq Cənubi Qafqazda qarşıdurma yox, əməkdaşlıq modelini təşviq edir.

### Praqmatik əməkdaşlıq sülh üçün əlavə stimuldur...

Mövcud proseslər onu göstərir ki, hələ rəsmi sülh sazişi imzalanmadan belə Bakı ilə İrəvan arasında müəyyən praktik və praqmatik əməkdaşlıq elementləri meydana çıxmağa başlayıb. Bu isə region üçün olduqca mühüm siqnaldır. Neft məhsullarının nəqli və tranzit imkanlarının yaradılması tərəflər arasında etimadın ilkin konturlarını formalaşdırır. Şübhəsiz ki, bu əməkdaşlıq mühiti sülh prosesinin inkişafına birbaşa təsir göstərməlidir. Çünki iqtisadi əlaqələr və qarşılıqlı fayda münasibətləri siyasi riskləri azaldan əsas amillərdəndir. Prosesin daha da dərinləşməsi siyasi iradədən, xüsusilə Ermənistan rəhbərliyinin revanşist ritorikadan imtina edib konstruktiv xətt seçməsindən asılı olacaq. Azərbaycan öz addımları ilə göstərir ki, sülh gündəliyi realdır və bu gündəlik İrəvan üçün də konkret iqtisadi üstünlüklər vəd edir. Başqa sözlə, indi top Ermənistanın meydanındadır.

### Bakı qarşılıqlı etimad və sabitlik formalaşdırır

Azərbaycanın həyata keçirdiyi siyasət revanşizmə deyil, qarşılıqlı etimad və iqtisadi əməkdaşlıq əsasında uzunmüddətli sabitliyin təmin olunmasına yönəlib. Bakı dəfələrlə bəyan edib ki, məqsədi regionda yeni gərginlik ocaqları yaratmaq deyil, münaqişə səhifəsini birdəfəlik bağlamaqdır. Ermənistana neft məhsullarının ixracı da bu yanaşmanın bariz nümunəsidir. Bu addım həm də beynəlxalq ictimaiyyətə ünvanlanan mühüm mesajdır: Azərbaycan sülhə hazırdır və sülhün real mexanizmlərini təklif edir. Qarşı tərəfin bu imkanlardan yararlanması isə Ermənistanın gələcək siyasi kursundan asılıdır. Bakı göstərir ki, sülh yalnız təhlükəsizlik deyil, eyni zamanda iqtisadi rifah, enerji təminatı və regional inteqrasiya deməkdir. Cənubi Qafqazın qlobal ticarət marşrutlarına inteqrasiyası baxımından enerji və yük daşımaları mühüm rol oynayır və Bakı bu prosesin əsas lokomotivi kimi çıxış edir.

### İrəvan üçün ciddi fürsətlər...

Beləliklə, Azərbaycanın Ermənistana neft məhsullarının nəqli Cənubi Qafqazda sülhün inkişafına xidmət edən strateji və uzaqgörən addımdır. Bu siyasət bir daha sübut edir ki, rəsmi Bakı regionda sabitliyin əsas təminatçısı və sülhün aparıcı tərəfidir. Azərbaycan sülhün yalnız kağız üzərində deyil, real iqtisadi və sosial faydalar üzərində qurulmasının tərəfdarıdır.

Bu yanaşma Ermənistan üçün də ciddi fürsətlər yaradır. Sülh yolu seçilərsə, İrəvan regional layihələrdən pay ala, iqtisadi blokadadan çıxış əldə edə və uzunmüddətli sabitliyə qovuşa bilər. Beləliklə, Azərbaycanın atdığı bu addımlar təkcə ikitərəfli münasibətlərin deyil, bütövlükdə Cənubi Qafqazın gələcəyinin sülh və əməkdaşlıq üzərində qurulmasına xidmət edir.

***Pərviz SADAYOĞLU***

# Müharibə əlilləri və şəhid ailələrinə yeni güzəştlər

## Bu sosial kateqoriyanın üzvləri mülkiyyət hüquqlarının qeydiyyatı ilə bağlı sənədlərə görə rüsumdan azad ediliblər

Məlum olduğu kimi Prezident İlham Əliyev "Dövlət rüsumu haqqında" və "Daşınmaz əmlakın dövlət reyestri haqqında" qanunlara müvafiq dəyişiklikləri təsdiq edib. Dəyişikliklərə əsasən, şəhid ailələri və müharibə əlilləri əmlakın qeydiyyatı ilə bağlı dövlət rüsumlarından azad olunublar. Belə ki, adıçəkilən sosial kateqoriyaya aid vətəndaşlar "Daşınmaz əmlakın dövlət reyestri haqqında" Qanunun 6-cı və "Dövlət rüsumu haqqında" Qanunun 26-cı maddələrində daşınmaz əmlaka mülkiyyət və digər əşya hüquqlarının dövlət qeydiyyatına alınması ilə bağlı sənədlərin verilməsinə görə tutulan dövlət rüsumunun bütün dərəcələrini ödəməkdən azad edilirlər. Rüsum dərəcələrinə daşınmaz əmlaka dair hüquqların dövlət qeydiyyatına alınması ilə bağlı reyestrdən çıxarışın (şəhadətnamə), texniki sənədlərin (pasport və plan ölçü) verilməsi, torpaq sahələri üzərində hüquqların qeydiyyatı üçün mərzçəkmə işlərinin görülməsi, daşınmaz əmlak üzərində hüquqların məhdudlaşdırılmasına (yüklülüyünə) dair dövlət reyestrindən arayışın verilməsi, ipotekanın dövlət qeydiyyatına alınması və daşınmaz əmlaka dair digər hüquqi hərəkətlər daxildir.

Təklif olunan dəyişiklik sosial cəhətdən həssas əhali kateqoriyasının - müharibə ilə əlaqədar, 20 Yanvar hadisələri ilə əlaqədar, hərbi xidmət vəzifələrini yerinə yetirməklə əlaqədar (o cümlədən Çernobıl AES-də hərbi xidmət vəzifələrini yerinə yetirməklə əlaqədar) əlilliyi müəyyən edilmiş şəxslərin, habelə şəhid ailəsi statusu almış şəxslərin həmin xidmətlərə və hüquqi hərəkətlərə görə dövlət rüsumundan azad olunmasını nəzərdə tutur.

### Vergi və sosial xarakterli güzəştlər

Mövcud qərar ölkəmizdə şəhid ailələri və müharibə əlillərinə dövlətin sosial diqqətinin və qayğısının nümunəsi olmaqla, bu istiqamətdə dövlət siyasətinin ardıcıl xarakter daşıdığını təsdiqləyir. Vətən Müharibəsindən sonra dövlətimizin qarşısında duran ən mühüm sosial məsələlərdən biri şəhid ailələrinin və sağlamlığını itirmiş qəhrəman döyüşçülərimizin qayğılarının diqqət mərkəzində saxlanılması, onların sosial vəziyyətinin yaxşılaşdırılmasıdır. Bu siyasətə uyğun olaraq, post-nünaqişə dövründə adıçəkilən sosial qruplara davamlı olaraq müxtəlif sosial güzəştlər edilir, müvafiq olaraq qanunvericlikdə dəyişikliklər edilməklə onların sosial müdafiəsinə yönəlmiş tədbirlərin əhatə dairəsi genişləndirilir.

Vergi Məcəlləsinə edilmiş dəyişikliklərə əsasən, həmin kateqoriyaya aid şəxslərin maliyyə-vergi yükü azaldılıb. Vətən müharibəsində şəhid olmuş şəxslərin ailə üzvləri və Azərbaycan Respublikasının azadlığı, suverenliyi və ərazi bütövlüyü uğrunda aparılan hərbi əməliyyatlar nəticəsində sağlamlığını itirmiş və əlilliyi müəyyən edilmiş hərbi qulluqçular üçün yeni vergi güzəştləri müəyyənləşdirilib. Eyni zamanda, Vətən müharibəsi iştirakçılarının da banklara və digər kredit təşkilatlarına olan borclarının silinməsindən əldə olunan gəlir gəlir vergisindən azad edilib. Şəhid olmuş şəxslərin ailə üzvlərinə və qazilərə verilən maddi yardımın 20 min manatadək olan hissəsi gəlir vergisindən azad edilib. Təhsil və ya müalicə haqları üzrə də vergi azadolmaları tətbiq olunub. Habelə gəlir vergisi üzrə digər dəyişiklik ölkə daxilində müalicə haqlarını, o cümlədən cərrahiyyə əməliyyatının haqqını ödəmək üçün maddi yardımın, birdəfəlik müavinətin dəyərinin 10 min manatadək olan hissəsinin, xaricdə müalicə haqlarını, o cümlədən cərrahiyyə əməliyyatının haqqını ödəmək üçün maddi yardımın, birdəfəlik müavinətin dəyərinin 50 min manatadək olan hissəsinin gəlir vergisindən azad edilməsi təmin olunub.

Həmçinin, "Şəhid adının əbədiləşdirilməsi və şəhid ailələrinə edilən güzəştlər haqqında" və qanunlarda, Əmək və Vergi Məcəllələrinə dəyişikliklər edilməsi nəticəsində sosial güzəştlər tətbiq olulub. Belə ki, Vergi Məcəlləsində nəzərdə tutulan dəyişikliklərdən biri də şəhid statusu verilmiş şəxsin valideynlərinin, dul arvadlarının və ərlərinin və övladlarının vergi tutulmalı olan aylıq gəlirləri, əməkhaqqı gəlirləri ilə bağlı 800 manat məbləğində vergi güzəştinin verilməsidir.

Vergi Məcəlləsinin 102.2.7-ci maddəsinə əsasən, qanunvericiliklə müəyyən edilmiş qaydada müharibə veteranı adı almış şəxslərin hər hansı muzdlu işdən vergi tutulmalı olan aylıq gəlirləri 400 manat məbləğində azaldılıb. Eyni zamanda, qanunvericiliklə müəyyən edilmiş qaydada müharibə veteranı adı almış şəxslərin ödəməli olduqları əmlak vergisininin məbləği 30 manata qədər (evlərin icarəyə, kirayəyə verildiyi, habelə sahibkarlıq və ya kommersiya fəaliyyəti ilə məşğul olmaq üçün istifadə edildiyi hallar istisna olmaqla), torpaqlara görə torpaq vergisinin məbləği isə 10 manata qədər azaldılıb.






### Şəhid ailələri və müharibə əlillərinə qayğı

44 günlük Vətən müharibəsindən sonrakı dövrdə şəhid ailələri üzvləri və müharibə iştirakçıları ilə bağlı həyata keçirilən genişmiqyaslı sosial dəstək paketinin icrası ardıcıl xarakter alıb.

Postmüharibə dövründə şəhid ailələri, müharibə ilə əlaqədar əlilliyi olan şəxslər və veteranlardan ibarət 250 min şəxs 500 mindən çox xidmətlə təmin olunub. Sosial dəstək paketi üzrə postmüharibə dövründə şəhid ailələri və müharibə iştirakçılarından ibarət 132 min şəxsə 400 min xidmət göstərilib, o cümlədən onlara 6900 mənzil və 567 avtomobil verilib. - 106 min şəxsə 120 min aylıq sosial ödəniş təyin edilib, 27,8 min şəxsin məşğulluğu təmin olunub, 25,5 min şəxsə birdəfəlik ödəniş verilib.

2025-ci ildə şəhid ailələri üçün Prezidentin aylıq təqaüdü artırılaraq 600 manatdan 700 manata, müharibə ilə əlaqədar əlilliyi olan şəxslər üçün Prezidentin aylıq təqaüdü artırılaraq I dərəcə üzrə 500 manatdan 600 manata, II dərəcə üzrə 400 manatdan 500 manata, III dərəcə üzrə 330 manatdan 400 manata, əlilliyə görə müavinətlər müvafiq olaraq 270 manatdan 300 manata, 220 manatdan 250 manata, 150 manatdan 180 manata çatdırılıb.

Beləliklə, çoxşaxəli sosial müdafiə tədbirləri nəticəsində qayğı ilə əhatə olunmuş şəhid ailələrinin və müharibə əlillərinin davamlı olaraq bütün problemləri və qayğıları dövlətin xüsusi nəzarətində saxlanılmaqla ardıcıl qaydada öz həllini tapmaqdadır.

***E.CƏFƏRLİ***

# Transatlantik həmrəylik sınaq qarşısında...

## Vaşinqton ilə Brüssel arasında strateji fikir ayrılıqları var

Ötən il Qərb koalisiyası daxilində uzun müddət pərdəarxasında qalan fikir ayrılıqları artıq açıq müstəviyə çıxmağa başlayıb. Transatlantik həmrəylik monolit görüntüsü getdikcə zəifləyir və ABŞ ilə Avropa İttifaqı arasında bir sıra strateji məsələlərdə mövqelərin üst-üstə düşmədiyi aydın görünür. Xüsusilə Ukrayna münaqişəsi ətrafında formalaşan yanaşmalar bu ziddiyyətləri daha qabarıq şəkildə üzə çıxardı. Vaşinqtonun münaqişədə vasitəçi qismində sülhyaratma təşəbbüsləri Avropa paytaxtlarında birmənalı qarşılanmadı, bəzi Aİ ölkələri ABŞ-ın prosesə yanaşmasını öz təhlükəsizlik maraqları ilə ziddiyyətli hesab etdi. Nəticə etibarilə, sülh razılaşması ilə bağlı formal razılaşma əldə olunsa da, Avropa daxilində mövcud narazılıqlar tam aradan qalxmadı və bu məsələdə vahid mövqe formalaşmadı.

Hazırkı mərhələdə isə Qərb koalisiyası üçün yeni sınaq nöqtəsi Qrenlandiya məsələsi ətrafında yaranan fikir ayrılıqlarıdır. ABŞ-ın bu strateji əraziyə marağı ilə Aİ-nin suverenlik və beynəlxalq hüquq prinsiplərinə əsaslanan yanaşması arasında açıq ziddiyyətlər müşahidə olunur. Bu proses transatlantik münasibətlərdə etimad böhranını dərinləşdirir və Qərb daxilində koordinasiyanın zəifllədiyini göstərir. Mövcud tendensiyalar onu deməyə əsas verir ki, yaxın dövrdə ABŞ-Aİ xəttində fikir ayrılıqları daha sistemli xarakter ala və Qərb koalisiyasının qlobal siyasətdəki vahid təsir gücünə ciddi mənfi təsir göstərə bilər.

### Tramp seçim edəcək...

Yeri gəlmişkən, ABŞ Prezidenti Donald Tramp Qrenlandiya üzərində nəzarəti ələ keçirməklə NATO-nu qorumaq arasında seçim etməli ola biləcəyini etiraf edib. “The New York Times” qəzetinə verdiyi müsahibədə Prezident onun üçün nəyin daha vacib olduğu sualına birbaşa cavab verməyib. Eyni zamanda, o, “seçim yarana biləcəyini” etiraf edərək, NATO-nun ABŞ-ın iştirakı olmadan mahiyyətcə faydasız olduğu mövqeyini vurğulayıb.

Aİ-nin aparıcı dövlətlərindən sayılan Fransa isə ABŞ-ın addımlarını düzgün saymır. Belə ki, Fransa prezidenti Emmanuel Makron yanvarın 8-də Parisdə keçirilən illik səfirlər konfransında deyib ki, ABŞ bəzi ənənəvi müttəfiqlərdən tədricən uzaqlaşır və əvvəl təbliğ etdiyi beynəlxalq qaydalardan kənara çıxır. Makron bildirib ki, çoxistiqamətli beynəlxalq institutlar getdikcə daha az effektiv işləyir və böyük güclər arasında dünyanı öz aralarında bölmək cəhdləri yaranır. Makron ABŞ-ın Venesueladakı hərbi əməliyyatlar və Qrenlandiya ilə bağlı bəyanatları fonunda Vaşinqtonun davranışlarının beynəlxalq qaydaların pozulması kimi dəyərləndirildiyini bildirib.

### Aİ narahatdır

Artıq ABŞ üçün prioritetə çevrilən qrenlandiya məsələsi Aİ daxilində narahatlıqla qarşılanır. Köhnə qitə ABŞ-ın Qrenlandiyanı əldə etmək təhdidinin reallaşacağı qarşısında mümkün fəaliyyətlərini müzakirə edirlər. “Reuters” agentliyinin məlumatına görə, bunu Avropa İttifaqının (Aİ) xarici siyasət üzrə ali nümayəndəsi Kaya Kallas bildirib. “Qrenlandiya ilə bağlı eşitdiyimiz siqnallar son dərəcə narahatedicidir,” - deynə Kallas Aİ-nin müzakirə nəticəsində əldə etdiyi nəticələri ətraflı açıqlamayıb.

Beynəlxalq ekspertlərin fikrincə, vəziyyət ciddi hal almaqla inkişaf edir. Belə ki, Tramp Qrenlandiyanın ABŞ-ın təhlükəsizliyi üçün vacib olduğunu bildirir və rəqiblərinin Arktikada artan hərbi fəaliyyətinə qarşı Danimarkanı kifayət qədər iş






görməməkdə günahlandırır. “Politico” xəbər verir ki, bu böhrandan ən sürətli çıxış yolu Danimarka ilə Qrenlandiya üzərindən edilmiş bir razılaşma olardı. NATO müttəfiqləri isə Qrenlandiyanın təhlükəsizliyini gücləndirə biləcək yeni təklifləri də nəzərdən keçirirlər. Qəzetin yazdığına görə, üç NATO diplomatının fikrincə, ittifaq Arktikada müdafiə xərclərini artırmağı, bölgədə daha çox hərbi təlim keçirməyi və Qrenlandiyanı qorumaq üçün qoşun yerləşdirməyi nəzərdən keçirməlidir. “Politico” bildirir ki, ittifaq regiona “Şərq Keşikçisi” və “Baltik Keşikçisi”nə bənzər “Arktika Keşikçisi” adlı hərbi yerləşdirmə missiyasına başlamağa açıq olmalıdır. Qəzetin məlumatına görə, Trampın mesajı budur ki, əgər Qrenlandiya ABŞ ilə müqavilə imzalasa, o, “sözün əsl mənasında Amerika pulu ilə dolacaq”. Aİ və Danimarka isə qrenlandiyalıları onlara daha əlverişli şərtlər təklif edə biləcəklərinə inandırmağa çalışırlar. Məsələn, ABŞ-ın Qrenlandiya

### Aİ Qrenlandiyaya pul ayırır...

iddiasının ardından Avropa Komissiyası 2028-ci ildən başlayaraq Qrenlandiyaya xərcləri ikiqatdan çox (yeddi il ərzində 530 milyon avroya qədər) artırmaq planı təklif edib. Bu vəsaitlər Danimarkanın özünüidarəetmə ərazisi ilə bağladığı müqavilə çərçivəsində Qrenlandiyaya verdiyi vəsaitlərə əlavə ediləcək. Hazırda Danimarka və Avropa dəstəyi əsasən sosial təminat, səhiyyə, təhsil və “yaşıl keçid”ə yönəldib. Qrenlandiya parlamentinin müstəqillik tərəfdarı olan müxalifət üzvü Kuno Fenker isə bildirib ki, “Bizdə çoxlu sayda insan yoxsulluq həddindən aşağı səviyyədə yaşayır, Qrenlandiyanın infrastrukturu geridə qalıb və sərvətlərimiz əsasən Qrenlandiyanın özü üçün heç bir əhəmiyyətli mənfəət olmadan çıxarılır - mənfəət əsasən Danimarka şirkətlərinə gedir”. “Politico”nun qənaətinə görə, Danimarka və Avropa Birliyindən cəlbedici təklif Qrenlandiyanın ABŞ-ın nəzarəti altına keçməsinin qarşısını almaq üçün kifayət edə bilər.

### Hərbi müdaxilə qarşılığında...

Nəşr yazır ki, ABŞ Qrenlandiyanı hərbi güclə ələ keçirmək qərarına gələrsə, avropalılar bunun qarşısını almaq üçün çox az iş görə biləcəklər. Aİ-dən olan hərbi ekspertlərin fikrincə, avropalılar “amerikalılar Qrenlandiyaya iddia etməzdən əvvəl onları qabaqcadan zərbə altına almağı” planlaşdırmırlar, lakin ABŞ-ın ilkin addımına cavab şəraitdən asılı olacaq. Hətta hücum kiçik bir qrup tərəfindən həyata keçirilərsə, onlar həbs oluna bilər. Hərtərəfli hücum şəraitində isə vəziyyət dəyişəcək. Danimarka qanuni olaraq işğala hərbi güclə cavab vermək məcburiyyətində qala bilər. 1952-ci ildən qüvvədə olan daimi qaydaya əsasən, Danimarka ərazisinə hücum halında qoşunlar “gözləmədən və ya əmr istəmədən dərhal müdaxilə etməlidirlər”.

Aİ-dən olan diplomatlar bildirilər ki, digər Avropa ölkələri Danimarkanın tələbi ilə ABŞ-a qarşı hərbi əməliyyatın potensial xərclərini artırmaq üçün Qrenlandiyada qoşun yerləşdirməyi nəzərdən keçirməlidirlər. “Politico” yazır ki, bu qüvvələr ABŞ-ın işğalına qarşı çıxa bilməyəcək, lakin onlar çəkindirici rol oynayacaqlar. Belə bir vəziyyətdə Amerika ordusunun “ya güc tətbiq etməyə, ya da geri çəkilməyə” məcbur olacağı bir vəziyyət yarana bilər. Amma bu strategiya insan itkisi də daxil olmaqla “yüksək xərc” ilə müşayiət olunur.

### Avropa özünün müdafiə sistemini yaradacaq?

Qeyd edək ki, Aİ artıq uzun müddətdir ki, NATO-dan kənar təhlükəsizlik arxitekturası formalaşdırmaq niyyətindədir. Belə ki, Aİ üzvü olan dövlətlər yaranan NATO müəmması ilə bağlı öz müstəqil müdafiə qabiliyyətlərini gücləndirmək məqsədilə bir sıra təşəbbüslər irəli sürür. Bu, isə bəzi siyasi şərhçilər tərəfindən “Avropanın müstəqil müdafiə sistemi” yaratmaq istiqamətində atılan addımlar kimi dəyərləndirilir. Daha çox ortaq müdafiə planlaması, silahların birgə alınması (PESCO, Avropa Müdafiə Fondu), öz müdafiə sənayesinin gücləndirilməsi (məsələn, Ukraynaya dəstək üçün Avropa Sülh Aləti), və NATO ilə əməkdaşlığı gücləndirmək kimi tədbirlər Avropanın özünü daha effektiv qoruya bilməsini təmin etməyə yönəlmiş addımlar sayılır. Bu addımlar Avropanın öz təhlükəsizlik məsələlərində daha az ABŞ-dan asılı olması, öz qərarını özünün verməsinə hədəflənir. Təsadüfi deyil ki, Aİ qarşıdakı 10 il ərzində hərbi ehtiyaclara 6,8 trilyon avro xərcləmək niyyətindədir.

Yeri gəlmişkən, Avropa İttifaqının müdafiə komissarı Andrius Kubilius da bildirib ki, Avropa İttifaqı qitədə dislokasiya olunmuş ABŞ qoşunlarını əvəzləyəcək ümumi orduya malik olmalıdır. Litvanın keçmiş Baş naziri hesab edir ki, qitəni daha yaxşı qorumaq üçün azı 100 min nəfərlik daimi Avropa silahlı qüvvələrinə ehtiyac var. Kubilius, həmçinin qitənin böyük ölkələrinin iştirakı ilə müdafiə şurasının da yaradılmasını təklif edib.

Qeyd edək ki, əvvəllər də bildirilirdi ki, əgər Avropa İttifaqı ölkələri NATO-nun tələbi ilə 2035-ci ilədək müdafiə xərclərini ümumdaxili məhsullarının 3,5 faizinədək artırsalar (NATO-nun hərbi xərclərin ümumdaxili məhsulun 5 faizinə çatdırmaq tələbi hərbi ehtiyaclar üçün 3,5 faizi, ikili təyinatlı infrastruktur layihələri üçün isə 1,5 faizi ehtiva edir), növbəti 10 il ərzində hərbi sahəyə 6,8 trilyon avro xərcləmiş olacaqlar. Müqayisə üçün deyək ki, Avropa İttifaqının növbəti yeddiillik büdcə planında (2026-2034) hərbi xərclər 60 milyard avro həcmində müəyyən edilib.

*SADİQ*

# BMT-də islahatlar aparılacaqmı?

## ABŞ-ın bir sıra təşkilatları tərk etməsi prosesə təkan verə bilər

ABŞ Prezidenti Donald Tramp ötən həftə Birləşmiş Ştatların onlarla beynəlxalq və BMT təşkilatından, o cümlədən əsas iqlim müqaviləsindən, habelə gender bərabərliyini və qadınların səlahiyyətlərini təşviq edən BMT qurumundan çıxması ilə bağlı açıqlama verib. O qeyd edib ki, bu təşkilatlar “ABŞ-ın milli maraqlarına zidd hərəkət edir”. ABŞ lideri bununla əlaqədar sərəncam imzalayıb.

**ABŞ BMT-nin 31 strukturunu tərk edib**

“Reuters” agentliyi xəbər verir ki, Trampın icra sərəncamı bütün ABŞ federal qurumlarından 31 BMT strukturunun, həmçinin digər 35 qurumun fəaliyyətində iştirakını və onların maliyyələşdirilməsini dayandırmağı tələb edir. Ağ Evin bəyanatında deyilir: “Bu ixtisarlar Amerika vergiödəyicilərinin maliyyələşdirilməsinə, qlobal maraqları ABŞ-ın prioritetləri hesabına inkişaf etdirən və ya vacib məsələləri qeyri-səmərəli şəkildə həll edən təşkilatlarda iştirakına son qoyacaq ki, ABŞ-ın vergiödəyicilərinin pulları müvafiq missiyaları digər vasitələrlə dəstəkləmək üçün daha yaxşı istifadə edilsin”.

Trampın bu addımı onun çoxtərəfli qurumlara, xüsusən də Birləşmiş Millətlər Təşkilatına qarşı uzun müddətdir davam edən ehtiyatlı mövqeyini əks etdirir. O, beynəlxalq təşkilatların effektivliyini, xərclərini və hesabatlılığını dəfələrlə şübhə altına alaraq, onların tez-tez ABŞ maraqlarına zidd hərəkət etmədiyini iddia edib. Tramp prezidentliyinin ikinci müddətinin əvvəlindən bəri ABŞ-ın BMT-yə maliyyələşdirməsini azaltmağa, BMT İnsan Hüquqları Şurasındakı iştirakını dayandırmağa və BMT-nin mədəniyyət təşkilatı olan UNESCO-dan çıxmağa çalışıb. O, həmçinin Ümumdünya Səhiyyə Təşkilatından və Paris İqlim Sazişindən çıxmaq planlarını açıqlayıb. ABŞ-ın siyahısına, həmçinin BMT-nin Ticarət və İnkişaf Konfransı, Beynəlxalq Enerji Forumu, BMT-nin Adi Silahlar Reyestri və Sülh Quruculuğu Komissiyası daxildir.

**Quterreş Ağ Evin qərarından təəssüflənib**

BMT-nin Baş katibi Antonio Quterreş isə Ağ Evin ABŞ-ın Birləşmiş Millətlər Təşkilatının bir sıra qurumlarından çıxmaq qərarı ilə bağlı açıqlamasından təəssüfləndiyini bildirib. Bununla əlaqədar verilən bəyanatda qeyd olunduğuna görə, Birləşmiş Millətlər Təşkilatının Baş Assambleya tərəfindən təsdiq edilmiş müntəzəm büdcəsinə və sülhməramlı büdcəyə ödənilən töhfələr BMT Nizamnaməsinə əsasən Birləşmiş Ştatlar da daxil olmaqla, bütün üzv dövlətlər üçün hüquqi öhdəlikdir. “BMT-nin bütün qurumları üzv dövlətlər tərəfindən verilən mandatlarının icrasını davam etdirəcək. BMT-nin ondan asılı olanların xeyrinə çalışmaq məsuliyyəti var. Biz mandatlarımızı qətiyyətlə yerinə yetirməyə davam edəcəyik”, - deyə bəyanatda qeyd olunub.

Əslində, D.Trampın məlum qərarının səbəbini ABŞ-da yox, BMT və onun strukturlarında axtarmaq lazımdır. Tramp və administrasiyası da anlayır ki, bu təşkilatlar keçmişdə qalıb, müasir çağırışlara cavab vermir, effektiv deyillər. Bununla əlaqədar ortada Azərbaycan nümunəsi var. Ötən il rəsmi Bakı bir sıra qeyri-effektiv beynəlxalq təşkilatlarda fəaliyyətini dayandırdı. Bu sırada BMT-nin Qaçqınlar üzrə Ali Komissarlığı, UNDP kimi təşkilatların Bakıdakı ofisləri var idi. Bu baxımdan, rəsmi Bakı dəfələrlə BMT də daxil olmaqla bir çox beynəlxalq təsisatların qeyri-səmərəli olduğunu, bir çoxunun isə müəyyən qüvvələrin əlində təzyiq alətinə




çevrildiyini vurğulayıb.

Azərbaycan dəfələrlə BMT strukturlarında islahatlar aparılmasının zərurliyini bəyan edib. Çünki dünyanın ən böyük təşkilatı olan BMT-nin faktiki səmərəsiz quruma çevrilməkdədir. Bu səbəbdən də hətta Baş katib Quterreş də ötən il təşkilatda islahatlar aparılmasının zərurliyini vurğulamışdı. Belə ki, o, ötən il BMT-nin yaradılmasının 80 illik yubiley tədbirində bəyan edib: “Mənim məqsədim səlahiyyətlərimə aid olan sahələrdə mümkün qədər tez hərəkət etmək və üzv dövlətləri özlərindən asılı olan bir çox qərarları nəzərdən keçirməyə çağırmaqdır. Hazırda BMT-nin fəaliyyətinə ehtiyac böyükdür və məqsəd aydındır: insanlara xidmət edən və XXI əsrə uyğunlaşdırılmış daha güclü və daha effektiv Birləşmiş Millətlər Təşkilatı formalaşdırmaq”.

**Beynəlxalq hüquqa nəzarət...**

Xatırladaq ki, BMT Təhlükəsizlik Şurası 1945-ci ildə yaradılıb. Quruma beş daimi üzv - ABŞ, Böyük Britaniya, Fransa, Rusiya, Çin və 10 qeyri-daimi üzv daxildir. Ümumiyyətlə, BMT daxilində islahatlardan və təşkilatın beynəlxalq hadisələrə, proseslərə effektiv təsir mexanizmlərinin yaradılmasından bəhs olunarkən bir sıra məqamlara nəzər salmaq lazımdır. Bunlar, ilk növbədə, BMT Nizamnaməsində və Təhlükəsizlik Şurasının strukturunda dəyişikliklərin edilməsidir. Qeyd etdiyimiz kimi, ötən dövr ərzində dünyada baş verən hadisələr BMT-də islahatların zəruri olduğunu bir daha təsdiqləyir. Çünki təşkilat faktiki olaraq hegemon güc mərkəzlərinin geosiyasi inhisarındadır. Xüsusilə də, Təhlükəsizlik Şurasında yer alan daimi üzvlər istədikləri vaxt hansısa qərara veto qoya bilirlər. Onlar veto hüququndan istifadə edərək subyektiv şəkildə öz maraqlarına uyğun olmayan məsələlərin qəbulunu əngəlləyirlər. Burada beynəlxalq hüququn subyekti, BMT-nin üzvü olan digər müstəqil dövlətlərin rəyləri, mövqeləri, demək olar ki, nəzərə alınmır. Bundan əlavə, BMT Təhlükəsizlik Şurasında hərbi-siyasi və strateji-təhlükəsizlik məsələləri ilə əlaqədar qərar qəbul edərkən ikili standartlara yol verilir. Bu barədə kifayət qədər nümunə var. BMT Təhlükəsizlik Şurasının qətnamələrinin dərhal icra edilməsi, sülhə məcburetmə mexanizmlərinin tətbiqi ilə əlaqədar Bosniya və Herseqovina, Yuqoslaviya, Liviya və digər presedentlər mövcuddur.

**“Dünya beşdən böyükdür” çağırışına Azərbaycandan dəstək**

Qeyd edək ki, BMT Təhlükəsizlik Şurasında islahatların aparılması təklifi ilə ilk olaraq Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan çıxış edib. BMT Baş Assambleyasının tribunasından “Dünya beşdən böyükdür!”, - deyən Ərdoğan bu yöndə təşəbbüslərini müxtəlif platformalarda da səsləndirib. Türkiyə Prezidentinin fikrincə, BMT Təhlükəsizlik Şurasının inklüziv islahatı təcili ehtiyacdır. “Beş ölkə arasında bəşəriyyətin taleyini tələyə salan hazırkı nizam davamlı deyil”, - deyə Rəcəb Tayyib Ərdoğan bəyan edib.

Nəzərə almaq lazımdır ki, üzv ölkələrin iştirakçılığı və beynəlxalq hüququn təmin olunması ilə dünyada sülh və iqtisadi rifah naminə əməkdaşlıq BMT-nin əsas missiyalarından biridir və məhz sadalanan meyarlar qlobal səviyyədə uzunmüddətli təhlükəsizliyin əsasını təşkil edir. Azərbaycan Prezidenti İlham Əliyev də BMT Təhlükəsizlik Şurasının qətnamələrinin icra mexanizmlərinin yenidən işlənməsini təklif edib. İlham Əliyev İslam Əməkdaşlıq Təşkilatının və Qoşulmama Hərəkatının üzvü olan ölkələrin də bu qurumda daimi təmsilçiliyinin vacibliyini vurğulayıb.

Artıq dünyanın bir çox dövlətləri BMT-də islahatların aparılmasının zəruriliyini açıq şəkildə vurğulayırlar. Çünki BMT-nin dünyada nüfuzunu qorumaq naminə islahatların alternativi yoxdur. ABŞ Prezidentinin məlum qərarı bu prosesi sürətləndirə bilər.

*Nardar BAYRAMLI*

# İranda gərginlik

## Etiraz aksiyaları davam edir

İranda etiraz aksiyaları və iğtişaşlar davam edir. Buna səbəb dolların bahalaşması fonunda milli valyutanın ucuzlaşmasıdır. Bu da əhalinin sosial durumuna ciddi təsir edir.

Qeyd edək ki, İranda İsraillə 12 günlük savaşdan sonra iqtisadi vəziyyət gərginləşib. Digər səbəb müharibəyə görə nüvə proqramı ilə bağlı İran-ABŞ danışıqlarının dayandırılmasıdır. Belə ki, bundan sonra Tehran Qərbin sanksiyaları ilə daha çox üzləşir. Bütün bunların fonunda dekabrın 28-i İranda, xüsusən də paytaxt Tehranda sahibkarların etiraz aksiyası başlayıb və güclənən nümayişlər davam edir. Təhlükəsizlik qüvvələri ilə etirazçılar arasında toqquşmalarda ölən və yaralananlar var. Etirazçılar ali dini lider Xameneinin portretlərini də yandırmaqdan çəkinməyiblər. Etiraz aksiyaları ölkənin 31 vilayətində 186 şəhəri əhatə edir.



### Pezeşkian: Etirazçılarla dialoqu öz borcumuz hesab edirik

Vaşinqtonda yerləşən "Human Rights Activist News Agency" (HRANA) məlumat yayıb ki, İranda etirazlar və iğtişaşlar zamanı ən azı 500-dən çox insan həlak olub. Təqdim olunan məlumatlara əsasən, qurbanlarla bağlı işlər hələ də araşdırma mərhələsindədir. Minlərlə insan isə həbs olunub.

Yeri gəlmişkən, İran Prezidenti Məsud Pezeşkian xalqa müraciətində İran xalqını meydanlara çıxmağa, mövqeyini ifadə etməyə və iğtişaşların onun tələblərini təhrif etməsinə imkan verməməyə çağırıb: "İran hökuməti qanuni etirazlarla iğtişaşları bir-birindən fərqləndirir və bütün zəruri dəyişiklikləri həyata keçirməyə hazırdır". Pezeşkian mülki şəxslərin həlakı ilə bağlı başsağlığı verib və gəncləri terrorizmə və iğtişaşlarda iştiraka qarşı xəbərdar edib: "Biz sülh yolu ilə keçirilən etirazları rəsmi şəkildə tanıyır və etirazçılarla dialoqu öz borcumuz hesab edirik. Ölkə daxilində etiraz edən bütün tərəflərlə görüşməyə hazırıq".

İranın Təhlükəsizlik Şurasının katibi Əli Laricani isə deyib ki, qarşıdurma və toqquşma yaradanlar ağır cəza ilə üzləşəcəklər. Onun sözlərinə görə, dinc aksiyalar ölkədə yaranan iqtisadi problemlərdən qaynaqlanan xalq etirazlarıdır: "Ali rəhbərin vurğuladığı kimi, bu etirazlar tamamilə anlaşılandır. İqtisadi, xüsusən də valyuta sahəsində sabitliyin təminatı xalqın haqlı tələblərindən biridir". Laricaninin fikrincə, xalqın iqtisadi tələbləri ilə heç bir əlaqəsi olmayan dağıdıcı bir hərəkat da meydana çıxıb: "Bu hərəkat etirazlardan sui-istifadə edərək çox zorakı və cinayətkar davranışlara əl atıb, o cümlədən insanları öldürmək, şəxsləri yandırmaq kimi zorakılıq aktları törədib". O, əlavə edib ki, hüquq-mühafizə orqanlarının çoxsaylı əməkdaşı yaralanıb və bir neçəsi ölüb: "Etiraz və toqquşmalara qatılmayan dinc sakinlər arasında da ölən və yaralananlar var".

### BMT Baş katibi niyə sarsılıb?

İrandakı vəziyyət beynəlxalq ictimaiyyətində diqqət mərkəzindədir. BMT-nin Baş katibi Antoniu Quterreş bəyan edib ki, İranda etirazçılara qarşı zorakılıqla bağlı xəbərlər onu sarsıdıb. Bu barədə açıqlama Baş katibin "X" sosial şəbəkəsindəki səhifəsində yerləşdirilib. "Son günlərdə insanların ölümünə və yaralanmasına səbəb olan zorakılıq və İran hakimiyyəti tərəfindən etirazçılara qarşı həddindən artıq güc tətbiqi ilə bağlı xəbərlər məni sarsıdıb. Fikir ifadə etmək, birləşmək və dinc toplaşmaq azadlığı tam şəkildə qorunmalı və təmin edilməlidir", - deyə açıqlamada bildirilib. Quterreş, həmçinin İran hakimiyyətini maksimum təmkin göstərməyə və lazımsız, yaxud qeyri-mütənasib güc tətbiqindən çəkinməyə çağırıb. O, əhalinin informasiyaya çıxışını təmin etmək üçün, o cümlədən rabitənin bərpası istiqamətində tədbirlər görülməsinin vacibliyini vurğulayıb.

Bundan başqa, Almaniya Kansleri Fridrix Merts, Böyük Britaniyanın Baş naziri Kir Starmer və Fransa Prezidenti Emmanuel Makron İrandakı vəziyyətlə bağlı birgə bəyanat qəbul ediblər. Bəyanatda İran təhlükəsizlik qüvvələrinin zorakılığa yol verməsi ilə bağlı xəbərlərdən dərin narahatlıq ifadə olunub və etirazçılara qarşı qətl törədilməsi pislənib. "İran hakimiyyət orqanları öz vətəndaşlarının qorunmasından məsuliyyət daşıyır və ifadə azadlığı ilə sülhsevər toplaşmağı heç bir təqib qorxusu olmadan təmin etməlidir. Biz İran hakimiyyətini səbirli davranmağa, zorakılıqdan çəkinməyə və İran vətəndaşlarının əsas hüquqlarını qorumağa çağırırıq", - deyə birgə bəyanatda vurğulanıb.

Avropa İttifaqının (Aİ) xarici işlər və təhlükəsizlik siyasəti üzrə ali nümayəndəsi Kaya Kallas isə İran hakimiyyəti tərəfindən etirazların sərt şəkildə yatırılmasına cavab olaraq ölkəyə qarşı əlavə sanksiyalar tətbiq etmək planları olduğunu bəyan edib. "Aİ artıq İrana qarşı geniş sanksiyalar tətbiq edib. Buraya insan haqlarını pozan, nüvə silahı hazırlayan və Rusiyanın Ukraynada müharibəsini dəstəkləyən şəxslərə qarşı sanksiyalar daxildir. Etirazların yatırılmasına cavab olaraq əlavə tədbirlər təklif etməyə hazıram", - K.Kallas vurğulayıb. Onun sözlərinə görə, İran etiraz hərəkatlarının yatırılmasında böyük "təcrübəyə" malikdir və hazırda təhlükəsizlik qüvvələri nümayişçilərə qarşı sərt cavab tədbirləri tətbiq edir: "Vətəndaşlar özlərinin seçdiyi gələcək uğrunda mübarizə aparır və səslərinin eşidilməsi üçün hər şeyi riskə atırlar".

### Tramp: ABŞ tezliklə qərar verəcək

Ağ Ev rəhbəri Donald Tramp isə jurnalistlərə açıqlamasında deyib ki, İran ABŞ-la əlaqə saxlayıb və danışıqlar təklif edir. O, belə bir müraciətin onun İrandakı etiraz aksiyalarına reaksiyasından sonra edildiyini deyərək, Tehranla görüş təyin etmək üçün danışıqlar apardığını bildirib. Dövlət başçısı İrandakı aksiyalarla bağlı hər saatbaşı məlumatlandırıldığını vurğulayıb: "Biz bəzi çox güclü variantları nəzərdən keçiririk. Mənə hər saat hesabat verilir və biz tezliklə qərar verəcəyik".

"The Wall Street Journal" nəşrinin öz mənbələrinə istinadla yaydığı məlumata əsasən, Donald Tramp öz komandası ilə görüş keçirərək İrana qarşı mümkün tədbirləri, o cümlədən hərbi zərbələri, kiberhücumları və yeni sanksiyaları müzakirə edəcək. Məlumata görə, görüşə Dövlət katibi Marko Rubio, Pentaqon rəhbəri Pit Heqset və Birləşmiş Qərargah Rəisləri Komitəsinin sədri general Den Keyn dəvət olunublar. Bu,



ABŞ administrasiyasının İranla bağlı mümkün hərəkət istiqamətlərini müzakirə etmək üçün ilk rəsmi görüş olacaq.

Bir müddət öncə Donald Tramp Vaşinqtonun İrandakı hadisələrə güc tətbiq etməklə cavab vermək imkanlarını ciddi şəkildə nəzərdən keçirdiyini bildirmişdi. Lakin Pentaqon hələlik potensial zərbələrə hazırlıq məqsədilə İran sərhədlərinə əlavə qüvvələr yerləşdirməyib.

*N.BAYRAMLI*

# Qəzzada yenidən müharibə başlayacaq?

## İsrail quru əməliyyatına hazırlaşır



Qəzza bölgəsidə vəziyyət yenidən aktivləşir. Belə ki, irəli sürülən sülh planına əsasən HƏMAS silahlarını təhvil verməli idi. Bəzi xəbərlərə görə, qruplaşmanın silahlarını təhvil verməkdən imtinası vəziyyəti yenidən dramatikləşdirir. "The Wall Street Journal" İsrail və ərəb mənbələrinə istinadən yazıb ki, HƏMAS-ın silahsızlanmaqdan imtina etməsi fonunda İsrail ordusu Qəzza sektorunda yeni quru əməliyyatı planı hazırlayıb. Eyni zamanda, HƏMAS müharibə zamanı itirdiyi hərbi potensialı bərpa etməyə çalışır.

Nəşrin məlumatına görə, buna zədələnmiş tunel infrastrukturunun təmiri də daxildir. Bildirilir ki, HƏMAS yeni maliyyə vəsaitləri əldə edib və bu da hərəkatın üzvlərinə müntəzəm ödənişlərin bərpasına imkan verib.

Qəzet, həmçinin qeyd edir ki, HƏMAS Qəzza sektorundan kənarda yeni komandirin seçilməsindən sonra silahsızlanma məsələsində mövqeyini dəyişə bilər. Namizədlər arasında silahsızlanmaya qarşı çıxan Xəlil əl-Həyya ilə yanaşı, daha mülayim mövqeyi ilə tanınan Xalid Məşəl də var.

**Üzvlər təsdiqlənməyib...**

Vurğulayaq ki, ABŞ Prezidenti Donald Trampın bu həftə "Sülh Şurası"nın tərkibini açıqlayacağı gözlənilir. Qəzza zolağına nəzarət edən radikal islamçı qrup Donald Trampın atəşkəs planına uyğun olaraq Qəzzanı idarə etmək üçün səlahiyyətlərin müstəqil Fələstin texnokratlarından ibarət komitəyə ötürülməsinə hazırlaşmaq üçün idarəetmə orqanlarına təlimat verdiyini açıqlayıb. Heç bir tərəflə siyasi əlaqəsi olmaması gərəkən texnokratların İsrail və ABŞ tərəfindən təsdiqlənib-təsdiqlənməyəcəyi hələ də məlum deyil. "The Israel Times" qəzeti yazıb ki, ötən həftə İsrailin Şin Bet təhlükəsizlik xidmətinə 12 şəxsin siyahısı təqdim edilib və onlardan səkkizi təsdiqlənib. HƏMAS və digər Fələstin fraksiyalarının nümayəndələri bu həftə Qahirədə Misir vasitəçiləri ilə danışıqlar aparacaqlar. Vurğulanır ki, 10 oktyabrda qüvvəyə minən atəşkəsin digər elementləri, məsələn, HƏMAS-ın tərksilah edilməsi və beynəlxalq təhlükəsizlik qüvvələrinin yerləşdirilməsi "Sülh Şurası" tərəfindən izləniləcək. HƏMAS Qəzza zolağı üzərində siyasi nəzarətdən imtina etməyə hazır olduğunu bildirir. Lakin əsas məsələ bir çox ölkə tərəfindən terror təşkilatı kimi tanınan və Qəzza zolağının əhalisinə nəzarət edən HƏMAS qruplaşmasının silahsızlaşdırılmasıdır.

**20 minlik əsgərin 60 min silahı...**

İsrailin mümkün quru əməliyyatı barədə yazan "The Times of Israel" qəzetinin məlumatına görə, plan atəşkəs demarkasiya xəttini (sözdə "Sarı Xətt") qərbə, sahilə doğru hərəkət etdirmək məqsədi daşıyır. Qəzet yazır ki, bu, İMQ-nin ərazi üzərində nəzarətini daha da genişləndirəcək. Qəzetdəki mənbələr hərbi əməliyyatın mart ayına planlaşdırıldığını bildirirlər. Lakin, bir ərəb rəsmisinin qeyd etdiyi kimi, bu, hələ də HƏMAS-ın tərksilahını da əhatə edən atəşkəsin ikinci mərhələsinə həyata keçməyə çalışan ABŞ-ın dəstəyi olmadan baş tuta bilməz.

"The Wall Street Journal"ın məlumatına görə, HƏMAS ağır silah ehtiyatlarının qalan hissəsini təslim etməyə hazırdır, lakin kiçik silahları təhvil vermək niyyətində deyil. İsrail qrupun 60 min kiçik çaplı silahlı olan 20 min döyüşçüsünün olduğunu təxmin edir. Bundan əlavə, qəzetin mənbələrinə görə, HƏMAS bu yaxınlarda vəsait axını alıb və bu da döyüşçülərinin müntəzəm maaşlarını bərpa etməyə imkan verib.

İsrail rəsmiləri qeyd edirlər ki, Qəzzaya qoşun göndərmək üçün təcili plan yoxdur - Təl-Əviv Amerikanın sülh planına irəliləmək üçün vaxt verməyə hazırdır. Qəzet yazır ki, sülh planında irəliləyişin qarşısını alan digər səbəb Qəzza ilə Misir arasındakı Rəfah sərhəd keçid məntəqəsinin açılmamasıdır. Buna səbəb isə Qəzzada ölən sonuncu İsrail girovunun cəsədinin hələ də qaytarılmamasıdır.



*SADİQ*

# Boyan Kumer: Sloveniya COP31-in uğurla keçəcəyinə əmindir




Sloveniya bu il Türkiyənin Antalya şəhərində keçiriləcək Birləşmiş Millətlər Təşkilatının İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 31-ci sessiyasının (COP31) uğurla keçəcəyinə əmindir.

AZƏRTAC xəbər verir ki, bu barədə jurnalistlərə Sloveniyanın ətraf mühit, iqlim və enerji naziri Boyan Kumer bildirib.

O, COP31 üçün ev sahibi ölkənin seçilməsini "düzgün və vaxtında atılan addım" adlandırıb. "Türkiyə qlobal iqlim məsələlərinin müzakirəsi üçün çox uyğun bir məkandır. Əminəm ki, COP31 uğurlu olacaq", - deyə sloveniyalı nazir bildirib və ölkələrin milli ekoloji məsələlərə deyil, bəşəriyyətin ortaq problemlərinə diqqət yetirməli olduqlarını vurğulayıb.

B. Kumer Türkiyənin dünya miqyasında tanınan mühüm geosiyasi rolunu vurğulayıb, həmçinin bərpaolunan enerji mənbələrinin inkişafının vacibliyini qeyd edib.

"Bu gün Türkiyənin bərpaolunan enerji sahəsində mövqeyini necə sürətlə gücləndirdiyini və bu mühüm sahədə getdikcə daha əhəmiyyətli rol oynadığını görürük. Bu, ortaq gələcəyimiz üçün çox ümidverici bir inkişafdır", - deyə nazir bildirib.

Bundan əvvəl COP31 üçün ilk hazırlıq iclası Türkiyədə ətraf mühit, şəhərsalma və iqlim dəyişikliyi naziri Murat Kurumun sədrliyi ilə keçirilmişdi. Müzakirələrdə Türkiyənin altı nazirliyinin nümayəndələri iştirak etmişdilər.

Təşkilatçılar ətraf mühit sammitində 196 ölkədən 80 mindən çox nümayəndənin iştirak edəcəyini gözləyirlər.

# Referendum keçirilsə...



Referendum keçiriləcəyi təqdirdə, ukraynalılar Donbasda ərazi güzəştlərinə getməyə hazırdırlar.

AZƏRTAC "Ukrainskaya Pravda" nəşrinə istinadla xəbər verir ki, bunu Ukraynanın sabiq xarici işlər naziri Dmitri Kuleba bildirib.

Onun sözlərinə görə, ukraynalılar ərazi güzəştləri qarşılığında güclü ordu, bərpa üçün milyardlar və Avropa Birliyinə üzvlük əldə edəcəklər. Bu, cəmiyyətin qəbul etməyə hazır olduğu bir ssenaridir.

Kuleba qeyd edib ki, 2024-cü ilin payızında nazir vəzifəsindən getdikdən sonra ölkəni gəzib, insanlarla danışmaq imkanı qazanıb. Onun fikrincə, Avropa İttifaqının Ukraynaya dəstəyi Rusiyanın təzyiqinə tam müqavimət göstərmək üçün kifayət etmir.

Sabiq XİN başçısı vurğulayıb ki, Ukraynanın öz yolu yoxdur; o ya Avropa İttifaqına qoşulacaq, ya da Rusiyanın bir hissəsi olacaq.

YENİ AZƏRBAYCAN

http://www.yeniazerbaycan.com

Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir



**“Yeni Azərbaycan” qəzetinə abunə olmaq istəyənlər aşağıdakı yayım şirkətləri ilə əlaqə saxlaya bilərlər:**

“Azərpoçt” MMC PDM- 0125984955, 0552004544
“Azərmətbuatyayımı” ASC - 0124411991, 0124404694
“Səma” MMC - 0125940252, 0503336969
“Pressİnform” MMC - 0703400100, 0504560835
“Qaya” MMC - 0125667780, 0502352343
“Bakmətbuat” MMC - 0124314313
“Ziya LTD” MMC - 0124977696, 0503067744

**6 aylıq abunə - 79,20 AZN**
**12 aylıq abunə - 158,40 AZN**




# Yeni ilin “köhnəsi”

## 13 yanvarda qeyd edilən bu bayram tarixi ənənəyə əsaslanır

Hər ilin dekabrın 31-i ilə yanvarın 1-nə keçən gecə dünya təqvimi və il yenilənir. Həmin gün bütün dünyada Yeni il bayramıdır. Ancaq bu günü xüsusi təmtəraqla qeyd edən ölkələrin bir çoxunda bayram ab-havası bitmiş sayılmır - ta ki, yanvarın 13-nə kimi. Çünki yanvarın 13-ü köhnə Yeni il bayramıdır. Hətta bu bayramı ikinci Yeni il kimi də qeyd edənlər var. Hər il yanvarın 13-də insanlar 13 gün əvvəlki kimi süfrələr açır, şadyanalıq edir, yeni təqvimin gəlişini növbəti dəfə qeyd edirlər. Hətta bir çoxları evlərdə qurulan yolkaları da ayın 13-dən sonra sökürlər.



### Bayramın tarixi...

Bu bayramı qeyd etmək ənənəsi qədimdən, hələ Yulian təqviminin vaxtında yaranıb. Rusiyada əvvəllər tətbiq olunan Yuli təqvimi ilə Yeni il yanvarın 14-də başlayır. Kilsə müasir Qriqorian təqviminə keçməzdən əvvəl bu gün bayram kimi qeyd olunurdu. 1700-cü ildə Birinci Pyotr həmin təqvimi ləğv edərək Yeni ilin bütün dünyada olduğu kimi yanvarın 1-də qeyd olunmasına qərar verib.

Qərarda qeyd olunub ki, ölkədə Yeni ilin müxtəlif tarixlərdə qeyd olunması xalqın çaşdırılmasına xidmət edir. Buna görə də hamılıqla birlikdə bayram yanvarın 1-də qeyd olunmalıdır.

Yanvarın 13-ü köhnə Yeni il kimi Sovet İttifaqı qurulduqdan sonra ənənələrin saxlanması məqsədilə qeyd olunmağa başlayıb. Bu da provaslav kilsəsinin bütün günləri Yuli təqvimi ilə qeyd etməsi ilə bağlıdır. Provaslavlarda müasir Yeni il isə Milad bayramı kimi qeyd olunur. Amma nəzərə almaq lazımdır ki, bu bayram təkcə Rusiyada, eləcə də postsovet ölkələrində keçirilmir. Katoliklər yeni ili e.ə 45-ci ildə Roma imperatoru Yuli Sezarın tərtib etdiyi təqvim əsasında indiyə qədər yanvarın 1-i qeyd edir.



### Nə üçün 13 yanvar?

Dünyanın bəzi ölkələrində bu bayramla bağlı özəl münasibətin səbəbləri də var. Bunlardan biri də dekabrın 31-dən fərqli olaraq, 13 yanvarın daha sakit, qarışıqlıqdan uzaq keçirilməsidir. Məsələn, Rusiyada keçirilən sorğu zamanı məlum olub ki, əhalinin 60 faizi bu bayramı keçirməkdə maraqlıdır. Onların arasında tələbələr, ev qadınları, 40 yaşdan kiçik şəxslər üstünlük təşkil edir.

Maraqlıdır ki, qədim ənənələrdən biri də 13 yanvarda, gecə saat 2-də südlü sıyıq bişirilməsidir. Həmin vaxt evin yaşca böyük xanımı anbardan düyü, evin yaşlı kişisi isə bulaqdan su gətirir. Soba qızmamış heç kim ona əl vurmazdı. Daha sonra hamı masa arxasında oturur, qadın sıyığı bişirməyə başlayırmış... Sıyıq dadlı və qaydasında alınanda yeni ili uğurlu və bərəkətli hesab etmək olarmış. Qazanından daşmış, normasında alınmamış südlü sıyıq isə ailə üçün bərəkətsiz, uğursuz il hesab olunurdu.

### Köhnə Yeni ili qeyd edən ölkələr...

Rusiya ilə yanaşı, köhnə Yeni il Azərbaycan, Gürcüstan, Moldova, Ukrayna, Belarus, Serbiyada, Çernoqoriya və İsveçrədə keçirilir. Yeni ili yanvarın 13-ündə qarşılamaq ənənəsi Serbiya və Çernoqoriyada hələ də saxlanılıb. Çünki bu ölkələrdə Rusiyada olduğu kimi kilsə günləri Yuli təqvimi ilə qeyd edilir. Serbiyada bu bayram Serbiyanın Yeni ili adlandırılır. Makedoniyada, İsveçrənin bir sıra almandilli bölgələrində də bu təqvim qeyd olunur.

Yaponiyada isə “rissyun” adlanan köhnə Yeni il baharın gəlişidir. Azərbaycanda köhnə Yeni ili daha çox ölkəmizdə yaşayan ruslar qeyd edirlər.

### Yeni ümidlər və köhnə Dəyərlər

Köhnə Yeni il təzə ümidlər, yeni arzular və məqsədlərin cəmləşdiyi bir an olmasına baxmayaraq, eyni zamanda, keçmişin dəyərlərini qorumağın bir vasitəsidir. Hər hansı bir yeni təqvim, hər zaman bir yenilik gətirir, amma bir çox insan köhnə Yeni İlin özünəməxsus ruhunun bəzən sadəlikdə və ailə dəyərlərində gizli olduğuna inanır. Köhnə Yeni İl sadəcə təqvimin bir günüdür, amma onun ruhu, insana keçmişin xatirələrini, sevdiklərini və ümumiyyətlə, həyatın sadə gözəlliklərini xatırladır. Yeni il dedikdə yalnız arzu və ya dəyişiklik gözləntisi ilə deyil, eyni zamanda, keçmişi, nəyi itirdiyimizi və nəyi qoruya bildiyimizi düşünərək qarşılanır. Bu, keçmişlə gələcək arasında bir körpü, bir əlaqə qurma cəhdi və bəlkə bir az da nostalji bir təşəbbüsdür.

*Yeganə BAYRAMOVA*

# Yastıpəncəlik: xəstəlik, yoxsa...

## Ayağa ağırlıq, bədənə deformasiya

*Yeganə BAYRAMOVA*

Ayaq altının təbii quruluşunda qövs mövcuddur. Bu qövs bədənin ağırlığını düzgün paylayır, yerimə zamanı zərbələri yumşaldır və beldən tutmuş boyuna qədər bütün skelet sisteminin tarazlığını qoruyur. Qövs itdikdə isə yük ayağın bütün səthinə bərabər paylanmır. Nəticədə tez yorulma, ayaq və diz ağrıları, bel problemləri meydana çıxır. İnsan bir müddət sonra ağrını adi hal kimi qəbul edir, lakin problem dərinləşməkdə davam edir.

Müasir həyat tərzi bu problemin səssiz şəkildə yayılmasına şərait yaradır. Uzun müddət oturaq iş, hərəkətsizlik, uyğun olmayan ayaqqabılar, xüsusilə də uşaqlıq dövründə düzgün nəzarətin olmaması ayaq altının düzləşməsini - yastıpəncəliyi sürətləndirir. Təəssüf ki, valideynlər çox vaxt uşağın ayaq quruluşuna yalnız ağrı yarananda diqqət yetirirlər. Halbuki erkən yaşlarda aparılan sadə müşahidə və düzgün tədbirlər gələcəkdə ciddi fəsadların qarşısını ala bilər.



Bu problem təkcə tibbi deyil, həm də sosial məsələdir. Ayaq ağrısı ilə yaşayan insan daha tez yorulur, əmək qabiliyyəti azalır, gündəlik həyatda passivləşir. Bu isə dolayısı ilə cəmiyyətin ümumi sağlamlıq səviyyəsinə təsir göstərir. Sağlam cəmiyyət isə sağlam addımlarla qurulur...

**Artıq çəki, səhv ayaqqabı seçimi...**

Mövzu barədə “Yeni Azərbaycan”a açıqlama verən pediatr Ramilə Məmmədova bildirib ki, yenidoğulmuş və körpələrdə ayaq tağı təbii olaraq tam formalaşmamış olur və bu normaldır. Adətən, 3-5 yaş aralığında ayaq tağı tədricən inkişaf edir: “Lakin bəzi hallarda bu inkişaf baş vermir və yastıpəncəlik qalıcı hala çevrilir. Yastıpəncəliyin bir çox yaranma səbəbləri var. Əsas faktorlardan biri genetik meyillilikdir. Ailəsində yastıpəncəlik olan insanlarda bu problemə rast gəlmə ehtimalı daha yüksəkdir. Digər səbəb kimi ayaq əzələlərinin zəifləməsini qeyd edə bilərik. Uzun müddət aktiv olmayan və ya düzgün ayaqqabı geyinməyən insanlarda bu vəziyyət inkişaf edə bilər.

Artıq çəki - bədən çəkisinin ayaqlara düşən təzyiqi artırması nəticəsində ayaq tağı çökə bilər. Səhv ayaqqabı seçimi - Dabanı çox sərt və ya düz olan ayaqqabılar, dar ayaqqabılar ayaq quruluşuna mənfi təsir edə bilər. Travmalar və xəstəliklər - Ayaq sümüklərinin və əzələlərinin zədələnməsi, artrit, diabet və sinir sistemi xəstəlikləri nəticəsində yastıpəncəlik inkişaf edə bilər”.

**Yastıpəncəliyin əlamətləri**

Həkimin sözlərinə görə, yastıpəncəliyin əsas simptomları ağrı və kosmetik görünüşdə müşahidə edilən deformasiyadır: “Ağrı qaçış, idman və digər fiziki fəaliyyət zamanı artır. Pəncə və ayaq altında hiss edilən ağrı şiddətli olarsa, yeriməkdə belə çətinlik yarada bilər. Bəzi hallarda iç topuq və pəncə tağı boyunca şişkinlik müşaiyət oluna bilər. Yastıpəncəlik hesabına yeriş və duruşda yaranan qeyri-sabitlik bədənin bud çanaq və diz oynaqlarına həddən artıq yük düşməsinə səbəb olur. Belə olan halda beldə və bədənin digər aşağı ətraf oynaqlarında ağrı olur. Xəstələr əksər hallarda ayaqqabılarının tez aşınmasından və genişlənməsindən şikayətlənirlər. Pəncə tağının olmaması xəstələrdə yastı pəncəlik yeriyişinə səbəb olur”.

**Həddi-büluğ yaşına qədər davam etdikdə...**

R.Məmmədova qeyd edib ki, normal körpə ayaqlarında 3 yaşa qədər iç qövs altında olan artıq yağ toxuması ayaqlara yastıpəncə görüntüsü verir və bu hal valideynləri həddindən artıq narahat edir: “Yumşaq yastıpəncəli uşaqlarda daban qövsü inkişafı 5-7 yaşına qədər davam edir. Yastıpəncəlik həddi-büluğ yaşına qədər davam etdikdə ayaqda ağrılar ola bilər. Bu vəziyyətdə həkimə müraciət etmək lazımdır”.

**Müalicə forması**

Peditar vurğulayıb ki, əgər uşaqda hərəkətlərə bağlı ağrı və ya yorğunluq olursa, əvvəlcə axil vətəri gərmə gimnastikaları edilir: “Bu gimnastikalardan sonra da şikayətlər davam edirsə supinator dabanlıq məsləhət görülür. Dabanlıq ağrı və yorğunluğu azaltmaqla yanaşı, ayaqqabının aşınmasının da qabağını alır. Bəzən axil vətərinin gərginliyini azaltmaq üçün fizioterapiya və gips tətbiqi lazım gəlir. Bu müalicələrə baxmayaraq, ağrı davam edirsə cərrahi müdaxilə məsləhət görülür. Ancaq bunu da yaddan çıxarmamaq lazımdır ki, yumşaq yastıpəncəlikdə cərrahi müalicə çox nadir hallarda aparılır”.

*İdman*

### “Lənkəran”da növbəti ayrılıq...



“Lənkəran” basketbol komandasında növbəti ayrılıq yaşanıb. Klubdan AZƏRTAC-a verilən məlumata görə, bölgə təmsilçisi 24 yaşlı kanadalı basketbolçu Ankit Çoudhari ilə yollarını ayırıb. O, bundan sonra Sloveniya Super Liqasında çıxış edən “Roqaska” klubunun şərəfini qoruyacaq.

Qeyd edək ki, Ankitdən əvvəl komanda qabonlu Antoni Tseqakele ilə vidalaşıb.

### “Karvan-Yevlax”ın yeni transferi



“Karvan-Yevlax” qış transfer dönəmində Samir Abdullayevin keçidini rəsmiləşdirib. AZƏRTAC xəbər verir ki, 24 yaşlı yarımmüdafiəçi mövsümün sonuna kimi bölgə təmsilçisinin formasını geyinəcək.

Samir Abdullayev mövsümün ilk yarısını “Mingəçevir” klubunda keçirib. Bu müddət ərzində 12 oyunda 4 qolla yadda qalıb.

### “Beşiktaş”dan Braziliyaya



Türkiyənin “Beşiktaş” komandasından ayrılan braziliyalı futbolçu Qabriel Paulista karyerasını ölkəsində davam etdirəcək. AZƏRTAC xəbər verir ki, 35 yaşlı müdafiəçi “Korintians”a keçib. Onunla 2027-ci ilin yayınadək müqavilə imzalanıb.

Qabriel Paulista 2024-cü ildən “Beşiktaş”da çıxış edirdi.

### Fiqurlu konkisürənlərimiz bürünc medal qazanıb



Azərbaycanın fiqurlu konkisürənləri Bolqarıstanın Sofiya şəhərində keçirilən “Sofia Trophy” adlı yarışda fəxri kürsüyə qalxıblar. Qış İdman Növləri Federasiyasından AZƏRTAC-a bildirilib ki, Samanta Ritter və Daniel Brikalov cütlüyü buz üstündə rəqs növü üzrə mübarizə aparıblar. Onlar 11 idmançı arasında 171.75 xal toplayaraq üçüncü yerdə qərarlaşıblar və bürünc medala sahib çıxıblar.


Təsisçi:
Yeni Azərbaycan Partiyası
Baş redaktor:
Alqış HƏSƏNOĞLU

www.yeniazerbaycan.com
mail@yeniazerbaycan.com
Ünvan: Bakı - AZ-1000, Üzeyir Hacıbəyli - 66
Telefonlar:
493-16-94
498-19-84

İndeks: 67100
Lisenziya: N-B-317
Tiraj: 4400
Sifariş: 70
“Kapital Bank” ASC-nin Nərimanov rayon filialı
h/h - 33080019443900419109
kod - 200093
VÖEN - 1500486601

Qəzet “Yeni Azərbaycan”ın bilgisayar mərkəzində yığılıb, səhifələnib və “Azərbaycan” nəşriyyatında ofset üsulu ilə çap edilib.

Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur.
Məsul növbətçi:
Yeganə Bayramova